QARABAĞ AZƏRBAYCANDIR!



“SƏS” qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 098 (6298) 5 iyun 2021-ci il. Qiyməti 40 qəpik

“Əlincə” Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.


# Qarabağda inkişafın Azərbaycan nümunəsi



Bax 5

## Mehriban Əliyeva minaya düşərək həlak olan Azərbaycan vətəndaşları ilə bağlı başsağlığı verib



Birinci vitse-prezident Mehriban Əliyeva rəsmi “İnstagram” hesabında bu gün Kəlbəcərdə vəzifə borcunu yerinə yetirərkən minaya düşərək həlak olan Azərbaycan vətəndaşları ilə bağlı paylaşım edib. SİA-nın məlumatına görə, paylaşımda deyilir:

Bax 3

## Azərbaycanın iki media işçisi minaya düşərək həlak olub



Azərbaycan Televiziyasının operatoru 1989-cu il təvəllüdlü Sirac Abışov və “Azərtac”ın əməkdaşı Məhərrəm İbrahimov (Əlioğlu) Kəlbəcər rayonunda xidməti vəzifələrini yerinə yetirərkən minaya düşərək həlak olublar. SİA xəbər verir ki, bu barədə AzTV-nin əməkdaşı Nigar Etibar məlumat yayıb.

Bax 3

## Azərbaycanlı jurnalistlərin ermənilərin basdırdığı minanın partlaması nəticəsində həlak olmaları ilə bağlı məlumatlar dünya KİV-lərinin diqqət mərkəzindədir


КИЕВ +21° USD 27.3584 КорреспонденТ.net
ГЛАВНАЯ УКРАИНА ГОРОД МИР БИЗНЕС СПОРТ LIFESTYLE ШОУ-БИЗ НАУКА
ВСЕ НОВОСТИ РАЗДЕЛА РОССИЯ
СПЕЦТЕМА: КАРАНТИН В КИЕВЕ И УКРАИНЕ >>

В Карабахе на мине подорвались два журналиста

ТЕКСТ: ОЛЬГА ЯНИВИ, 4 июня 2021, 13:09

ЧИТАТЬ НОВОСТЬ НА УКРАИНСКОМ

Фото: aa.com.tr
Магеррам Ибрагимов

Погибли два азербайджанских журналиста. Водитель автомобиля, в котором они находились, ранен.

В селе Сусузлуг Кельбаджарского района Карабаха на мине подорвались азербайджанские журналисты. Погибшими являются оператор гостелеканала AzTV Сирадж Абышов и сотрудник АЗЕРТАДЖ Магеррам Ибрагимов, сообщает агентство Anadolu.

Kəlbəcər rayonunda Azərbaycan jurnalistlərinin Ermənistan tərəfindən basdırılmış minaya düşərək həlak olmaları və yaralanmaları ilə bağlı məlumatlar dünyanın aparıcı informasiya agentliklərinin və xəbər resurslarının diqqət ...

Bax 5

## Azərbaycan jurnalistləri beynəlxalq təşkilatlara müraciət etdi



Dünən Azərbaycan Mətbuat Şurasının İdarə Heyətinin genişləndirilmiş iclasında Azərbaycan Dövlət İnformasiya Agentliyinin...

## Azərbaycan mətbuatının nümayəndələri şəhid jurnalistlərin xatirəsini yad edir



Bax 4



Bax 16

## Erməni ombudsmandan “humanizm” çağırışı...

“...Məhkumlara qarşı hər hansı bir təqib və ya mühakimə beynəlxalq hüququ kobud şəkildə pozmaqdır”. Qeyd edim ki, bunu erməni ombudsman Arman Tatoyanın Azərbaycan...

## Ərdoğan Şuşaya gəlir: kimlərə hansı mesajlar veriləcək?



## Ermənilərin mina xəritələri USAİD-də ola bilər!



Bax 6

## F1 ikinci sərbəst yürüşünün qalibləri məlum olub



Bax 16

# Qarabağda inkişafın Azərbaycan nümunəsi



***Ötən il Azərbaycanın şanlı tarixinə 44 günlük Vətən müharibəsi kimi düşən İkinci Qarabağ savaşı uğurla yekunlaşandan sonra xalqımız və dövlətimizin qarşısında yeni məsul vəzifə dayandı.***

Bu, işğaldan azad edilmiş tarixi və əzəli torpaqlarımızda quruculuq, bərpa işlərinin aparılması, yenidən Qarabağa həyatın qaytarılmasıdır. Artıq dövlətimiz bu istiqamətdə genişmiqyaslı işlər görür, əcnəbi şirkətlərlə birgə yeni iqtisadi, quruculuq layihələri hazırlanır, hətta infrastrukturun bərpası ilə bağlı bir çox ilkin tədbirlər həyata keçirilir. Təbii ki, bütün bu mənzərələrin fonunda ölkə başçısının işğaldan azad olunmuş ərazilərə mütəmadi səfərlər etməsi quruculuq və bərpa işlərinin daha operativ və effektiv şəkildə davam etdirilməsini təmin edir.

### Prezident İlham Əliyev: "Azad edilmiş torpaqlarda bütün bərpa işləri ən yüksək səviyyədə təşkil olunacaq"

Bəli, bu gün bütün bərpa işləri planlı şəkildə və yüksək səviyyədə görülür. 2021-ci ilin ilk ayından başlayaraq işğaldan azad olunmuş torpaqlara Qalib Liderinin Qələbə yürüşü hər bir azərbaycanlıya böyük qürur və fəxarət hissi yaşadır. Təbii ki, bu Qələbə zəfərdən sonra işğaldan azad olunan rayonlarına səfər Qalib Komandanın öz sevincini, görüləcək işlərlə bağlı məlumatları xalqı ilə paylaşması məqsədi daşıyır. Ən əsası isə, işğalçı ölkə ilə bərabər, bütün dünya da şahidi oldu ki, torpaqların əsl sahibləri qayıdıb...

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva yanvarın 14-də Azərbaycanın işğaldan azad edilən mədəniyyət paytaxtı Şuşa şəhərinə səfəri və səfər zamanı dövlətimizin başçısının avtomobili özünün idarə etməsi isə hər kəsə açıq şəkildə mesaj verdi ki, "Mən Şuşaya Qələbə yolu ilə gəlmişəm!". Azərbaycan xalqı və Prezidenti heç kəsdən və heç nədən qorxmur. Biz qalibik! Zəfər bizimdir! Qarabağ Azərbaycandır!

Bu səfər zamanı Prezident İlham Əliyev Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun 27-ci kilometrində Füzuli-Şuşa yolunun, həmçinin Füzuli rayonunda hava limanının təməllərini qoyub bildirdi ki, bu hava limanının əsas məqsədi xarici qonaqların Şuşaya gəlişini təmin etməkdir: "Çünki buradan Şuşaya olan məsafə o qədər də böyük deyil. Nəzərə alsaq ki, bu gün Füzuli-Şuşa dördzolaqlı və bəzi yerlərdə altızolaqlı yeni avtomobil yolunun təməli qoyulub, xarici qonaqlar Füzuli Beynəlxalq Hava Limanına gələrək, çox rahat və qısa müddət ərzində Şuşa şəhərinə gedə biləcəklər".

"Böyük qayıdış başlayır, bütün işlərə start verildi", - deyən dövlət başçısı vurğulayıb ki, qısa müddətdə işğaldan azad edilmiş torpaqlarımız bərpa ediləcək: "Əminəm, necə ki, düşməni qısa müddət ərzində torpaqlarımızdan qovduq, - cəmi 44 gün ərzində, - bizim tarixi dədə-baba torpağımız olan Qarabağı da qısa müddətdə bərpa edəcəyik. Qarabağ Azərbaycandır!".

### Böyük tarixi qələbənin təntənəsi - "Xarıbülbül" festivalı milli birlik və həmrəyliyin nümayişidir

Həmçinin, dövlət başçımızın sərəncamı ilə Şuşa şəhərinin Azərbaycanın mədəniyyət paytaxtı elan etməsi və mədəniyyət paytaxtı Şuşa şəhərində 32 ildən sonra Cıdır düzündə Heydər Əliyev Fondu tərəfindən təşkil olundu "Xarıbülbül" musiqi festivalı Azərbaycan tarixinin ən mühüm mədəniyyət hadisələrindən biri idi. Festivalın bir neçə mühüm mesaj verdiyini qeyd edən deputat hesab edir ki, festival Azərbaycan xalqının milli birlik və həmrəyliyini nümayiş etdirir: "Eyni zamanda, festival dünya ictimaiyyətinə bu torpaqların əsl sahibinin kim olduğunu göstərir. Festivalın proqramı və formatı ideoloji məzmununun milli birlik, həmrəylik, əzmkarlıq, tarixi və milli ənənələrə sədaqət kimi dəyərlər üzərində qurulub. Festivalda Azərbaycanda yaşayan müxtəlif xalqların mədəniyyətini, musiqi və rəqs ənənələrini nümayiş etdirən çıxışlar Azərbaycanda dini və etnik tolerantlığın yüksək səviyyədə qorunmasına dair çox vacib bir mesaj verir. Çünki tolerantlıq bizim xalqımızın mühüm dəyərlərindən biridir".

### Ulu Öndər Heydər Əliyevin arzuladığı Azərbaycan: Şuşa azaddır, Qarabağımız dirçəlir!

Azərbaycanın Ümummilli Lideri Heydər Əliyevin ən böyük arzusu Qarabağın düşmən tapdağından azad edilməsi və ərazi bütövlüyümüzün bərpası idi. Ulu Öndər fəaliyyəti dövründə daim bu amal uğrunda çalışır, torpaqlarımızın işğaldan azad olunması üçün bütün gücünü səfərbər edirdi.

"Qarabağ məsələsini həll edəcəyik. Zaman lazımdır, vaxt lazımdır. Azərbaycan torpaqları heç vaxt



onun əlindən gedə bilməz. Bizim işğal olunmuş torpaqlarımız mütləq qaytarılacaqdır", - deyən Ulu Öndər bir gün yurdumuzun düşmən əsarətindən azad olunacağına əmin idi. O, həm də inanırdı ki, memarı olduğu Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi dövründə daha da güclənəcək, beynəlxalq aləmdə mövqeyini möhkəmləndirəcək və qüdrətli ordusu ilə tarixi ədaləti bərpa edəcək.

1988-ci ildən yaranan Dağlıq Qarabağ münaqişəsinin həlli, Qarabağ bölgəsi hər zaman ulu öndər üçün xüsusi əhəmiyyətə malik olub. O, hələ Sovet dönəmində rəhbər vəzifələrdə çalışarkən Qarabağa həssaslıqla yanaşıb, buranın ictimai-siyasi həyatının, xüsusən də mədəniyyət sektorunun dirçəlməsində əvəzsiz rol oynayıb. Ulu Öndərin Şuşaya dair sözləri Qarabağa necə sevgi ilə yanaşmasını sübut edirdi: "Şuşa təkcə şuşalılar üçün yox, bütün azərbaycanlılar üçün, Vətənini, millətini sevən hər bir vətəndaşımız üçün əziz bir şəhərdir, əziz bir torpaqdır, əziz bir qaladır, əziz bir abidədir".

### "Heç kim Şuşadan Azərbaycan ruhunu silə bilməz"

O vaxt məscidin açılışında möhtərəm Prezidentimiz demişdi ki, gün gələcək biz Şuşada məscidləri bərpa edəcəyik və yeni məscidlər tikiləcəkdir. Belə də oldu. Ramazan bayramı ərəfəsində Şuşada yeni möhtəşəm məscidin təməli qoyuldu. Ermənilər tərəfindən qurulmuş "Xan qızı Natəvan" bulağından bu gün su gəldi. Bütün bunlar böyük rəmzi məna daşıyır. Gələn il bütün Azərbaycan Şuşanın 270 illiyini təntənə ilə qeyd edəcək. Pənahəli xan 1752-ci ildə Şuşanın təməlini qoyub və o vaxtdan işğal dövrünə qədər bu şəhərdə həmişə azərbaycanlılar yaşayıblar. Ermənilər nə qədər çalışsalar da, evlərimizi, məscidlərimizi dağıtsalar da Şuşadan Azərbaycan ruhunu silə bilmədilər. Şuşa 30 ilə yaxın əsarətdə qaldı, lakin əyilmədi, sınmadı, öz ləyaqətini və milli ruhunu qoruyub saxlaya bildi. "Xarıbülbül" festivalı bir daha onu göstərir ki, biz Şuşaya birdəfəlik qayıtmışıq və bundan sonra burada əbədi yaşayacağıq."

Ancaq bu gün mənfur düşmən terror siyasətini təkcə işğal dövründə deyil, məğlubiyyətdən sonra da davam etdirir. Ermənistan hər yeri, hətta hərbi təyinatı olmayan əraziləri də minalayıb. Əsas məqsədi, əlbəttə ki, mümkün qədər çoxlu sayda mülki şəxslərin həlak olmasını təmin etmək, hər vəchlə işğaldan azad olunmuş ərazilərin bərpası istiqamətində həyata keçirilən işlərə mane olmaqdır. Prezident İlham Əliyev yerli və xarici media nümayəndələri üçün keçirdiyi mətbuat konfransında söügedən məsələyə aydınlıq gətirməklə Ermənistanın cinayətkar əməllərini müharibədən sonra da davam etdirdiyini vurğulayıb: "Biz işğaldan azad olunmuş ərazilərin təhlükəsizliyini bu gün kifayət qədər təmin edirik, müntəzəm reydlər keçiririk, pilotsuz uçuş aparatları vasitəsilə və vizual şəkildə monitorinq aparırıq. Buna görə vəziyyət tam nəzarət altındadır. Bundan əlavə, əlbəttə, ərazilərin minalanması əsas çətinlikdir. Ona görə ki, erməni tərəfi minalanmış sahələrin xəritələrini bizə təqdim etməyib. Yeri gəlmişkən, bu da cinayət hesab edilə bilər. Ona görə ki, hərbi əməliyyatlar başa çatandan sonra bizdə həm hərbi qulluqçular, həm də mülki şəxslər arasında bir neçə hadisə olub, bu insanlar yalnız ona görə həlak olub ki, minalanmış sahələrin xəritələri bizə təqdim edilməyib.

Ancaq mənfur düşmən bilməlidir ki, yeni texnologiyaların tətbiqi imkan verəcək ki, biz bundan sonra da öz hərbi gücümüzü daim yüksək səviyyədə saxlaya bilək. Dövlət başçımızın dediyi kimi: "Əlbəttə ki, bütün işlər planlı şəkildə aparılmalıdır". Və bu gün Cənab Prezident İlham Əliyevin rəhbərliyi və qətiyyəti ilə işğaldan azad olunmuş ərazilərin bərpası istiqamətində həyata keçirilən işlər və tədbirlər, atılan addımlar Qarabağın cənnətə çevrilməsinə hədəflənmişdir. Ancaq mənfur düşmən unutmamalıdır ki, necə ki, Azərbaycan Prezidenti cənab İlham Əliyev illərlə işğal siyasətinə son qoymaq üçün qətiyyət, iradə və prinsipiallıq nümayiş etdirdisə indi də atdığı düşünülmüş və sistematik addımlar Qarabağın qısa zaman kəsiyində dirçəldilməsinə istiqamətlənib. Dövlət başçımızın rəhbərliyi altında bu missiyanın da öhdəsindən gələcəyik, ərazilər minalardan təmizlənəcək və insanlar öz el-obalarına geri dönəcəklər.

### Qarabağda həyat yenidən qaynayacaq

Bu gün işğaldan azad olunmuş torpaqlar quruculuq meydanına çevrilib. Prezidentin Ağdam səfəri "Qarabağda cənnət yaradacağıq" vədi sözü ilə əməlin bir olmasının göstəricisidir. Prezident İlham Əliyev bu günə qədər verdiyi bütün sözləri, vədləri yerinə yetirib. Necə ki, "Qarabağ Azərbaycandır və nida işarəsi" deyən dövlətimizin başçısı sözlərinə sadiq qalaraq Ermənistanın faşizm siyasətini məhv etdi, Qarabağı işğaldan azad etd, hazırda da "Qarabağda cənnət yaradacağıq" vədini addım-addım yerinə yetirməkdədir. Prezident İlham Əliyevin bu dəfə işğaldan azad olunmuş Ağdam rayonuna səfər etməsi, Ağdam şəhərinin Baş planı təqdim olunması, Bərdə-Ağdam avtomobil yolunun, Ağdam şəhərində inşa olunacaq ilk yaşayış binasının, Ağdam Sənaye Parkının, Zəfər muzeyi və açıq hava altında İşğal muzeyinin, Ağdam şəhər 1 saylı məktəbin yeni binasının təməlqoyma mərasimlərində iştirak etməsi, Şahbulaq qalasında, Qiyaslı məscidində, Qarabağ xanlığının banisi Pənahəli xanın sarayının yerləşdiyi imarət kompleksində olması, bərpaları barədə göstərişlər verməsi dövlətimizin başçısının "Qarabağda cənnət yaradacağıq" vədinin növbəti reallığıdır.

Ancaq mənfur düşmən unutmamalıdır ki, necə ki, Azərbaycan Prezidenti cənab İlham Əliyev illərlə işğal siyasətinə son qoymaq üçün qətiyyət, iradə və prinsipiallıq nümayiş etdirdisə, indi də atdığı düşünülmüş və sistematik addımları Qarabağı qısa zaman kəsiyində dirçəldəcək, ərazilərimiz minalardan təmizləniləcək və insanların öz el-obalarına geri dönəcəklər. Çünki Qarabağ Azərbaycanındır! Qarabağ cənnət məkanıdır!

***RƏFİQƏ KAMALQIZI***

# Mehriban Əliyeva minaya düşərək həlak olan Azərbaycan vətəndaşları ilə bağlı başsağlığı verib



Birinci vitse-prezident Mehriban Əliyeva rəsmi "İnstagram" hesabında bu gün Kəlbəcərdə vəzifə borcunu yerinə yetirərkən minaya düşərək həlak olan Azərbaycan vətəndaşları ilə bağlı paylaşım edib. SİA-nın məlumatına görə, paylaşımda deyilir:

"Azərbaycan Televiziyasının operatoru Sirac Abışovun, Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) əməkdaşı Məhərrəm İbrahimovun və Rayon İcra Hakimiyyəti başçısının Susuzluq kənd inzibati dairəsi üzrə nümayəndəsinin müavini Arif Əliyevin Kəlbəcər rayonunda vəzifə borcunu yerinə yetirərkən minaya düşərək həlak olmaları barədə xəbəri dərin kədər hissi ilə qarşıladım. Müharibə başa çatdıqdan sonra azad olunmuş ərazilərdə 140 nəfərdən çox insan erməni işğalçılar tərəfindən quraşdırılmış minalara düşüb. Onlardan 27-si həlak olub. Günahsız insanların ölümünə görə bütün məsuliyyət Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşür. Azərbaycan tərəfinin mina xəritələrinin təqdim edilməsi ilə bağlı çoxsaylı çağırışlarına baxmayaraq, Ermənistan bundan imtina edir və bununla da beynəlxalq humanitar hüququ pozmağa və Azərbaycana qarşı terror siyasəti həyata keçirməyə davam edir.

Təəssüf ki, Azərbaycan tərəfinin ATƏT-in Minsk qrupu ölkələrinə, həmçinin müxtəlif beynəlxalq təşkilatlara mina xəritələrinin verilməsi məsələsində Ermənistana təzyiq göstərməsi ilə bağlı çağırışları heç bir nəticə vermədi. Jurnalist hüquqlarının müdafiəçisi qismində çıxış edən beynəlxalq qeyri-hökumət təşkilatları hələ də susmaqda davam edir!Azərbaycan xalqı müzəffər xalqdır! Onun iradəsini sındırmaq və onu qorxurtmaq qeyri-mümkündür! Həlak olanların ailələrinə və yaxınlarına dərin hüznlə başsağlığı verirəm. Allah rəhmət eləsin! Məkanları cənnət olsun!

**Mehriban Əliyeva".**

## Prezidentin köməkçisi beynəlxalq təşkilatları Kəlbəcərdəki hadisəni pisləməyə çağırdı



Prezidentin köməkçisi, Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev beynəlxalq təşkilatları Kəlbəcərdəki hadisəni pisləməyə çağırıb. SİA xəbər verir ki, bununla bağlı "Twitter" hesabında paylaşım edən H.Hacıyev deyib: "AzTV və AZƏRTAC-ın jurnalistləri Ermənistan qoşunlarını Kəlbəcərdən çıxarkən qəsdən yerləşdirdiyi minanın qurbanı olublar. Beynəlxalq təşkilatları həmrəyliyə və bu hadisəni pisləməyə çağırıram. Sirac Abışov və Məhərrəm İbrahimova Allahdan rəhmət diləyirik!".

Qeyd edək ki, dünən xidməti vəzifələrinin icrası ilə əlaqədar işğaldan azad edilmiş Kəlbəcər rayonuna ezam olunmuş televiziya kanallarının və xəbər agentliklərinin əməkdaşlarının olduğu avtomobil rayonun Susuzluq kəndi istiqamətində hərəkətdə olarkən tank əleyhinə minaya düşüb. Hadisə nəticəsində Sirac Abışov (AzTV telekanalının operatoru), Məhərrəm İbrahimov ("Azərtac" xəbər agentliyinin əməkdaşı) və digər bir mülki vətəndaş həlak olub.

## Azərbaycanın iki media işçisi minaya düşərək həlak olub





Azərbaycan Televiziyasının operatoru 1989-cu il təvəllüdlü Sirac Abışov və "Azərtac"ın əməkdaşı Məhərrəm İbrahimov (Əlioğlu) Kəlbəcər rayonunda xidməti vəzifələrini yerinə yetirərkən minaya düşərək həlak olublar. SİA xəbər verir ki, bu barədə AzTV-nin əməkdaşı Nigar Etibar məlumat yayıb. Qeyd olunub ki, baş verən hadisə erməni vandalizminin və düşmənin mülki şəxslərə qarşı törətdiyi cinayətlərin daha bir nümunəsidir.

SƏS Media Qrup adından hər iki həmkarımızın ailəsinə dərin hüznlə başsağlığı verir, onlara Allahdan rəhmət diləyirik!

## XİN: "Bütün məsuliyyət Ermənistanın üzərinə düşür"



Azərbaycan Respublikasının Baş Prokurorluğu və Daxili İşlər Nazirliyinin birgə məlumatına əsasən, 4 iyun 2021-ci il tarixində səhər saatlarında Kəlbəcər rayonunun Susuzluq kəndi ərazisində hərəkət olan yolda çəkiliş qrupunun üzvlərini aparan nəqliyyat vasitəsi tank əleyhinə minaya düşüb. Partlayış nəticəsində çəkiliş qrupunun iki nəfər üzvü, Azərbaycan Televiziyasının operatoru Sirac Abışov və Azərbaycan Dövlət İnformasiya Agentliyinin müxbiri Məhərrəm İbrahimov, habelə rayon icra hakimiyyətinin nümayəndəsi Arif Əliyev həlak olub, 4 nəfər isə yaralanıb. SİA-nın xəbərinə görə, bu barədə Xarici İşlər Nazirliyinin (XİN) Mətbuat xidməti idarəsinin yaydığı məlumatda bildirilib. "Həlak olanların ailələrinə və yaxınlarına dərin hüznlə başsağlığı bildirir, yaralılara isə Allahdan şəfa diləyirik", - deyə qeyd olunub.

Məlumatda bildirilib ki, Azərbaycan tərəfi Ermənistanın beynəlxalq humanitar hüququ, o cümlədən 1949-cu il Cenevrə Konvensiyalarını kobud şəkildə pozaraq Azərbaycan ərazilərində məqsədli şəkildə və geniş miqyasda minalar basdırması məsələsini davamlı şəkildə beynəlxalq müstəvidə qaldırır: "Kəlbəcərdə baş verən bu hadisə bir daha onu göstərir ki, bu ərazidəki minalar Ermənistan tərəfindən, Azərbaycan Silahlı Qüvvələrinin əks-hücum əməliyyatlarından sonra məcburi geri çəkilmə mərhələsində məqsədli şəkildə yerləşdirilib. Məqsəd isə Azərbaycan tərəfinə mümkün qədər ziyan vurmaq və evlərinə qayıdacaq mülki əhaliyə ələvə maneələr yaratmaqdır.

Xatırladırıq ki, bir müddət öncə Kəlbəcər istiqamətində Azərbaycan ərazilərinə daxil olaraq, ərazidə yolların minalanmasına yönəlmiş təxribat törədərkən Ermənistan silahlı qüvvələrinin bir qrupu saxlanılıb. Bu da bir daha onu göstərir ki, Ermənistan tərəfi həm hərbi, həm də mülki şəxslərin həyatı və təhlükəsizliyinə ciddi təhlükə yaratmaqda davam edir, beləliklə də bölgədə vəziyyətin gərginləşməsinə xidmət edir. Ermənistanın bu davranışı regionda sülh, təhlükəsizlik və əməkdaşlığın reallaşdırılmasına başlıca əngəl olmaqda davam edir. Mülki azərbaycanlıların öz vəzifə borclarını yerinə yetirərkən mina qurbanına çevrilməsinin bütün məsuliyyəti Ermənistanın üzərinə düşür.

Beynəlxalq ictimaiyyəti Ermənistanın beynəlxalq öhdəliklərini kobud şəkildə pozmasına, o cümlədən məqsədli şəkildə minalar yerləşdirmək siyasətinə göz yummamağa və Ermənistandan beynəlxalq hüquq qarşısında üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməsini tələb etməyə çağırırıq. Azərbaycan öz tərəfindən sülhü və təhlükəsizliyi təmin etmək üçün bütün müvafiq, o cümlədən lazımi hüquqi tədbirləri görəcəkdir".

## ATƏT media işçilərinin Kəlbəcərdə faciəvi ölümü ilə bağlı bəyanat verib



ATƏT-in media azadlığı üzrə nümayəndəsi Tereza Ribeiro iyunun 4-də Kəlbəcərdə media işçilərinin minaya düşərək şəhid olmasından dərin narahatlığını bildirib. SİA-nın məlumatına görə, bu barədə ATƏT-in yaydığı bəyanatda deyilir.

"Məhərrəm İbrahimov və Sirac Abışovun faciəvi ölümü xəbəri dəhşətlidir və mən onların yaxınlarına və həmkarlarına başsağlığı diləyirəm", - T.Ribeiro vurğulayıb. ATƏT rəsmisi hüquq-mühafizə orqanlarının məsələylə bağlı cinayət işi açdığını qeyd edərək günahkarların məsuliyyətə cəlb ediləcəyinə ümidvar olduğunu bildirib.

## İqor Korotçenko: Rusiya Jurnalistlər İttifaqı azərbaycanlı jurnalistlərin həlak olması ilə əlaqədar rəsmi bəyanatla çıxış etməlidir

İçərisində azərbaycanlı jurnalistlərin olduğu maşın Kəlbəcər rayonunda ermənilər tərəfindən qoyulmuş minaya düşüb. Həlak olanlar və yaralananlar var. "Nasionalnaya oborona" jurnalının baş redaktoru, hərbi ekspert İqor Korotçenko bu barədə öz facebook səhifəsində yazıb. Rusiyalı ekspert vurğulayır: "Öz xidməti borclarını yerinə yetirən həmkarlarımız həlak olub. Azərbaycanın erməni işğalından azad edilmiş ərazilərinin hər yerində mina təhlükəsi var. Biz, bu yaxınlarda Ağdam və Füzuli rayonlarında səfərdə olmuş rusiyalı jurnalistlər və ekspertlər də risk edirdik, lakin baş verən hadisələr barədə obyektiv məlumat vermək üçün öz peşə borcumuzu yerinə yetirirdik. Ermənilər tərəfindən qoyulmuş minalara biz də düşə bilərdik".



İ.Korotçenko qeyd edir ki, Rusiya Jurnalistlər İttifaqı azərbaycanlı jurnalistlərin həlak olması ilə əlaqədar rəsmi bəyanatla çıxış etməli, başsağlığı verməli və Azərbaycanın işğaldan azad edilmiş ərazilərində ermənilər tərəfindən minalanmış sahələrin xəritələrinin dərhal Azərbaycana verilməsini, habelə erməni təxribatçıların göndərilməsinə son qoyulmasını rəsmi Yerevandan tələb etməlidir.

Hərbi ekspert vurğulayıb: "Biz beynəlxalq jurnalist ittifaqlarının bu faciəyə münasibət bildirmələrini gözləyirik. Ümumi tələbimiz belədir: Ermənistanı mina sahələrinin xəritələrini verməyə məcbur etmək məqsədilə ona siyasi təzyiq göstərilsin".

## Şevçenko: "Azərbaycanlı jurnalistlərin minaya düşməsi diversiya və terror aktıdır"



Bir halda ki jurnalistlər icazə verilən ərazidə hərəkət edərkən minaya düşüblər, deməli burada minanın quraşdırılması diversiya və terror aktıdır. Ermənilərin mina xəritələrini verməkdən imtina etməsi biabırçılıqdır. Bu, Azərbaycanın əsas tələblərindən biri olmalıdır".

Redaktor.az xəbər verir ki, bu barədə rusiyalı politoloq, jurnalist, televiziya aparıcısı və ictimai xadim Maksim Şevçenko bildirib.

Ekspertin fikrincə, Qarabağda minalar nizamsız şəkildə quraşdırılıb: "Azərbaycanın şəhər və kəndlərində ermənilərin özlərini necə apardıqlarına, Xirosima kimi yerlə bir edilmiş Ağdamın peyzajına, bir vaxtlar işğal altında olmuş ərazilərdəki xaosa nəzər yetirdikdə bu, aydın görünür".

"Azərbaycan hərbi cinayətlərin nəticələrinin əks olunduğu beynəlxalq "Ağ kitab" hazırlamalıdır. Məsələn, nasistlərin cinayətlərinin, İraq müharibəsinin nəticələrinin əks olunduğu "Ağ kitab"lar var. Hesab edirəm ki, Qarabağın işğalının nəticələri ilə bağlı da belə bir "Ağ kitab" hazırlanmalıdır", - deyə Şevçenko təklif edib. O həmçinin, Kəlbəcərdə həlak olan KİV nümayəndələrinin qohumlarına və yaxınlarına başsağlığı verib. //Report

# Azərbaycan mətbuatının nümayəndələri şəhid jurnalistlərin xatirəsini yad edir





***İyunun 4-də Kəlbəcər rayonunun Susuzluq kəndi ərazisində hərəkət olan yolda çəkiliş qrupunun üzvlərini aparan nəqliyyat vasitəsinin tank əleyhinə minaya düşməsi nəticəsində həlak olan jurnalistlərin - AZƏRTAC-ın müxbiri Məhərrəm İbrahimovun və AzTV-nin operatoru Sirac Abışovun xatirəsi ehtiramla yad olunur. AZƏRTAC xəbər verir ki, Azərbaycan mətbuatının və ölkə ictimaiyyətinin nümayəndələri Şəhidlər xiyabanının yaxınlığında yaradılan xatirə guşəsini ziyarət edir, önünə gül dəstələri düzürlər.***











# Azərbaycan jurnalistləri beynəlxalq təşkilatlara müraciət etdi

***Dünən Azərbaycan Mətbuat Şurasının İdarə Heyətinin genişləndirilmiş iclasında Azərbaycan Dövlət İnformasiya Agentliyinin ("AZƏRTAC") müxbiri Məhərrəm İbrahimovun və "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin (AZTV) operatoru Sirac Abışovun Kəlbəcər rayonu ərazisində minaya düşərək həlak olmaları ilə bağlı Azərbaycan jurnalistlərinin xarici media qurumlarına və beynəlxalq təşkilatlara müraciəti qəbul edilib. 120-dən çox media, jurnalist təşkilatı rəhbərinin və müstəqil jurnalistin imza atdıqları müraciəti təqdim edirik:***




2021-ci il iyun ayının 4-də Azərbaycan Dövlət İnformasiya Agentliyinin ("AZƏRTAC") Qarabağa ezam olunan müxbiri Məhərrəm İbrahimov və "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin (AZTV) operatoru Sirac Abışov Azərbaycanın Ermənistan işğalından azad edilmiş Kəlbəcər rayonu ərazisində minaya düşərək həlak olublar. Daha bir mülki şəxsin həlak olduğu, üç nəfərin isə yaralandığı bu hadisə Azərbaycan jurnalistlərində dərin üzüntü, kədər, təəssüf və hiddət hissi doğurmuşdur.

İkinci Qarabağ Müharibəsinin başa çatmasından, Azərbaycan, Rusiya və Ermənistan liderlərinin imzaladıqları 10 noyabr 2020-ci il tarixli üçtərəfli birgə bəyanatdan sonra Ermənistan tərəfindən vaxtilə ərazidə yerləşdirilmiş müxtəlif növ minalar və digər partlayıcı qurğular indiyədək xeyli sayda mülki şəxsin həyatına son qoyub, yaralanmalarına səbəb olub. Təxminən 35000-dən çox minanın zərərsizləşdirilməsinə baxmayaraq, mina qurbanlarının sayı artmaqda davam edir. Məhərrəm İbrahimovun və Sirac Abışovun həyatlarını itirmələri ilə nəticələnmiş faciəli hadisə minalanmış ərazilər probleminin jurnalist fəaliyyətinə də maneçilik törətdiyinin, məhdudiyyət yaratdığının, peşəni əsl təhlükəyə çevirdiyinin bariz göstəricisidir. Nəzərə alaq ki, hər iki media orqanının əməkdaşı Kəlbəcər rayonuna məhz xidməti vəzifələrini həyata keçirmək üçün getmişdilər.

Ermənistan Respublikası minalanmış ərazilərin xəritələrini verməkdən imtina edir. Bu, nəinki həmin ərazilərdə jurnalist yaradıcılığını məhdudlaşdırır, eyni zamanda Ermənistanın işğalı nəticəsində zorla doğma yurdlarından ayrı düşmüş məcburi köçkün ailələrinin geri qaytarılmasına da imkan vermir. Beləliklə həm cəmiyyətin informasiya ilə təminatı, həm də insanların öz evlərində yaşamaq hüququ pozulur. Otuz ilə yaxın müddətdə işğalçılıq yolu tutmuş Ermənistan indi də mina xəritələrini verməkdən imtina etməklə özünün beynəlxalq hüquqa zidd niyyətini gerşəkləşdirməkdə, bölgədə sülhün və əminamanlığın yaranmasına qarşı çıxmaqdadır.

Onu da bildiririk ki, Azərbaycanın işğaldan azad olunmuş ərazilərində geniş quruculuq işlərinə başlanılıb. Əraziyə xarici şirkətlərin böyük marağı var. Bu maraq eyni zamanda müxtəlif ölkələrdən jurnalistlərin bölgəyə axınını şərtləndirməkdədir. Ermənistanın mina xəritələrini verməkdən imtinası xarici media təmsilçilərinin də həyatlarına təhlükədir. Bu, məqsədli şəkildə edilən hərəkətdir, bəşəri dəyərlərə birbaşa təhdid əməlidir. Çox istərdik ki, beynəlxalq təşkilatlar, o cümlədən jurnalistika sahəsində fəaliyyət göstərən nüfuzlu qurumlar məsələ ilə bağlı qətiyyətli və prinsipial mövqelərini bildirsinlər. Hesab edirik ki, onların verəcəkləri sərt reaksiya Ermənistanın tutduğu anti-bəşəri yoldan daşınmasına əməli töhfə ola bilər. Biz Azərbaycan jurnalistlərinin gösləntisi məhz bundan ibarətdir.

Biz Azərbaycan jurnalistləri Azərbaycan Dövlət İnformasiya Agentliyinin müxbiri Məhərrəm İbrahimovun və "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin (AZTV) operatoru Sirac Abışovun həyatlarını itirmələri ilə nəticələnmiş faciəli hadisədən bir daha kədərləndiyimizi bildiririk. Bu müraciəti imzalamaqla məqsədimiz beynəlxalq ictimaiyyətin diqqətini Ermənistanın insan hüquq və azadlıqlarına zidd əməlinə çəkməkdir.

Biz xaricdəki həmkarlarımızı bu fakta ciddi reaksiya verməyə, Ermənistan Respublikasına minalanmış ərazilərin xəritələrini vermək üçün təzyiq göstərməyə çağırırıq. Əmin edirik ki, bu çağırış missiyasına dəstək insanların, habelə jurnalistlərin həyatları üçün mövcud olan təhlükənin aradan qaldırılmasına köməkdir. Bu dəstək həmçinin bölgədə sülhün, əminamanlığın və sabitliyin yaradılmasına son dərəcə böyük töhfə ola bilər.

# Azərbaycanlı jurnalistlərin ermənilərin basdırdığı minanın partlaması nəticəsində həlak olmaları ilə bağlı məlumatlar dünya KİV-lərinin diqqət mərkəzindədir


КорреспонденТ.net
В Карабахе на мине подорвались два журналиста
ТЕКСТ: ОЛЬГА ЯНИВИ, 4 июня 2021, 13:09
Фото: aa.com.tr
Магеррам Ибрагимов
Погибли два азербайджанских журналиста. Водитель автомобиля, в котором они находились, ранен.
В селе Сусузлуг Кельбаджарского района Карабаха на мине подорвались азербайджанские журналисты. Погибшими являются оператор гостелеканала AzTV Сирадж Абышов и сотрудник АЗЕРТАДЖ Магеррам Ибрагимов, сообщает агентство Anadolu.


ТАСС
Двое азербайджанских журналистов погибли в Карабахе, подорвавшись на мине
Речь идет об операторе AzTV Сирадже Абышове и корреспонденте информагентства АзерТАдж Магерраме Ибрагимове
БАКУ, 4 июня. /ТАСС/. Двое азербайджанских журналистов погибли, подорвавшись на мине в Кельбаджарском районе страны, сообщило в пятницу азербайджанское государственное телевидение AzTV.
"В результате подрыва на мине погибли, исполняя служебный долг, оператор AzTV Сирадж Абышов и корреспондент информагентства АзерТАдж Магеррам Ибрагимов. Выражаем соболезнования семьям погибших", - говорится в сообщении телеканала.

Kəlbəcər rayonunda Azərbaycan jurnalistlərinin Ermənistan tərəfindən basdırılmış minaya düşərək həlak olmaları və yaralanmaları ilə bağlı məlumatlar dünyanın aparıcı informasiya agentliklərinin və xəbər resurslarının diqqət mərkəzindədir.

AZƏRTAC xəbər verir ki, qardaş Türkiyə mediası azərbaycanlı jurnalistlərin Kəlbəcərdə mina partlaması nəticəsində həyatlarını itirməsi ilə bağlı xəbərlərə geniş yer ayırıb. Türkiyənin Anadolu Agentliyi, "Haber Global" televiziya kanalında verilən informasiyalarda deyilir ki, Ermənistanın minalanmış ərazilərin xəritələrini verməkdən imtina etməsi hərbçilərlə yanaşı, dinc insanların, o cümlədən öz xidməti vəzifələrini icra edən media mənsublarının da həyatını təhlükə altına atır.

Bu hadisə ilə bağlı Rusiyanın TASS, Ria Novosti informasiya agentliklərində və BBC-nin Rusiya bölməsində dərc olunan xəbərlərdə AZƏRTAC-ın müxbiri Məhərrəm İbrahimovun və AzTV-nin operatoru Sirac Abışovun Kəlbəcər rayonu ərazisində mina partlaması nəticəsində həlak olduqları bildirilir, həmçinin sentyabrın 27-də başlayan və 44 gün davam edən İkinci Qarabağ müharibəsi ilə bağlı məlumatlar verilir.


ГОРДОН
В Азербайджане на мине подорвались два журналиста
Азербайджан обвинил Армению в гибели мирных жителей
Фото: EPA (архив)
Утром 4 июня в Кельбаджарском районе Азербайджана (бывший так называемый пояс безопасности Нагорного Карабаха) на противотанковой мине подорвался автомобиль, в котором находилась съемочная группа азербайджанского телеканала и местные чиновники. Об этом сообщила пресс-служба министерства иностранных дел страны.
В результате взрыва погибли три человека: оператор Азербайджанского телевидения Сирадж Абишов, корреспондент государственного информационного агентства Магеррам Ибрагимов и представитель исполнительной власти района Ариф Алиев. Еще четверо получили ранения.
В МИД Азербайджана заявили, что ответственность за инцидент несет Армения.


РИА НОВОСТИ
В Карабахе погибли двое азербайджанских журналистов, подорвавшись на мине
БАКУ, 4 июн – РИА Новости. Двое азербайджанских журналистов подорвались на мине в Карабахе, они погибли, сообщает в пятницу Гостелевидение Азербайджана (АЗТВ).
"Оператор AzTV Сирадж Абышов, 1989 года рождения, и Магеррам Ибрагимов (Алиоглу), сотрудник (агентства - ред.) "Азертадж", подорвались на мине при исполнении служебных обязанностей в Кельбаджарском районе. Они погибли. ЗАО "Азербайджанское телевидение и радиовещание" выражает глубокие соболезнования семьям погибших", - сообщается в эфире.

Ukrayna kütləvi informasiya vasitələri də Ermənistanın mina xəritələrini verməməsi nəticəsində Kəlbəcərdə iki azərbaycanlı jurnalistin həlak olması ilə nəticələnmiş son hadisəyə xüsusi yer ayırıb. "Ukrinform", "RBK-Ukraina", "24tv.ua", "gordonua.com", "correspondent.net" kimi media platformaları hadisə ilə bağlı informasiyalar yayıb. Xəbərlərdə bildirilir ki, Azərbaycan beynəlxalq hüquqa əsaslanaraq Ermənistandan minalanmış ərazilərin xəritələrini tələb edir. Ermənistan isə bundan israrla imtina edir.

Kəlbəcərdə baş vermiş mina partlayışı və dinc insanların həlak olması ilə bağlı xəbərlər, həmçinin ərəb mətbuatının da diqqət mərkəzində olub. Bununla bağlı "aljazeera.com" saytında, Misirin "Yeni dünya xəbərləri", "Aldiplomacy", Səudiyyə Ərəbistanının "Səda", "Əl Vətən" informasiya portallarında, "Okaz" qəzetində xəbərlər dərc edilib.

İranın İRNA rəsmi dövlət xəbər agentliyində dərc olunan məlumatda isə bildirilir ki, Ermənistanın yollara basdırdığı mina mülki əhali arasında da itkilərə gətirib çıxarır. Avstraliyanın "news.com.au", "australiannewsreview.com", "adelaidenow.com.au" saytları da Kəlbəcərdə Ermənistan silahlı qüvvələri tərəfindən basdırılmış minanın partlaması nəticəsində ikisi jurnalist olmaqla üç dinc sakinin həlak olması ilə bağlı materiallar yayıb.

# MEDİA Kəlbəcərdə minaya düşərək şəhid olan jurnalistlərlə bağlı bəyanat yayıb

***Medianın İnkişafı Agentliyi (MEDİA) Kəlbəcərdə mina partlayışı nəticəsində Azərbaycanın iki media işçisinin şəhid olması ilə bağlı bəyanat yayıb. SİA xəbər verir ki, bəyanatda deyilir: "İşğaldan azad edilmiş Kəlbəcər rayonunda xidməti vəzifələrini yerinə yetirərkən "Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri" QSC-nin operatoru Sirac Abışov və Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AzərTAC-ın) müxbiri Məhərrəm İbrahimovun və daha bir mülki vətəndaşımızın minaya düşərək həlak olması, bir neçə nəfərin yaralanması Ermənistanın terrorçu əməllərinin növbəti əyani sübutudur.***

MEDİA

Bütün beynəlxalq konvensiyalara və əldə olunmuş razılıqlara zidd olaraq Ermənistan tərəfindən işğaldan azad olunmuş ərazilərdə yerləşdirilmiş minaların xəritələrinin Azərbaycana təhvil verilməməsi minlərlə insanın həyatını təhlükəyə məruz qoyur və bu gün olduğu kimi günahsız insanların ölümü ilə nəticələnir.

Törədilən terror aktı beynəlxalq hüququn norma və prinsiplərini, beynəlxalq humanitar hüququn, o cümlədən 1949-cu il tarixli Cenevrə Konvensiyaları və onların əlavə protokollarının ağır pozuntusu olmaqla Ermənistanın sülhə, təhlükəsizliyə və beynəlxalq hüquqa saymazyana münasibətinin, cəzasızlıq mühitinin formalaşdırılması səbəbindən bu kimi qeyri-insani davranışları vərdiş halına gətirməsinin və humanist ideyaları təcavüzkar milliyyətçiliyə qurban verməsinin göstəricisidir.

İşğaldan azad olunmuş ərazilərimizdə ermənilər tərəfindən törədilmiş qeyri-insani hərəkətlər, nadir mədəni tarixi abidələrimizin amansızcasına dağıdılması, təbii sərvətlərimizin talan edilməsi barədə həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, tarixi reallıqların lentə alınaraq əbədiləşdirilməsi məqsədilə ən çətin şəraitdə çalışarkən həlak olmuş jurnalist həmkarlarımızın vəfatından kədərləndiyimizi bildirir, ailələrinə başsağlığı verir, Allahdan onların əzizlərinə və doğmalarına səbr diləyirik".

# Ermənilərin mina xəritələri USAİD-də ola bilər!

## Görünən İzlər bu ehtimalı isbata çevirir



***İşğaldan azad olunmuş ərazilərimizdə düşmənin təxribat-diversiya əməlləri davam edir və buna digər tərəfdən "mina müharibəsi" də demək olar. Belə ki, bu dəfə AzTV və AZƏRTAC-da fəaliyyət göstərən jurnalist həmkarlarımız da daxil olmaqla mülki şəxslərimizin olduğu avtomobilin tank əleyhinə minaya düşərək həlak olmaları artıq bıçağın sümüyə dirəndiyini, düşmənin isə mina xəritələrini Azərbaycan tərəfinə təqdim etməməkdə israrlı olduğunu nümayiş etdirməkdədir.***

Completed and Current USAID Programs in Nagorno-Karabakh, 1998 to date: Nov. 15, 2010

| PROGRAMS, PARTNERS, PURPOSE | OBLIGATIONS ($) | DISBURSEMENTS ($) | YEARS |
|---|---|---|---|
| Phase 1 | 14,512,012 | 14,512,012 | 1998-2003 |
| International Committee of the Red Cross: health | 579,795 | 579,795 | 1998 |
| Save the Children: shelter, water, health, micro-finance | 10,987,992 | 10,987,992 | 1998-2001 |
| Catholic Relief Services/Family Care: shelter, health | 2,944,225 | 2,944,225 | 2001-2003 |
| Phase 2: | 20,876,084 | 17,420,941 | 2001 – to present |
| Fund for Armenia Relief: shelter, water, health | 11,173,937 | 11,065,919 | 2002-2008 |
| HALO Trust: de-mining | 6,378,000 | 4,045,415 | 2001 -2010 (to go until 2012) |
| United Methodist Committee on Relief: Micro-finance | 2,057,985 | 2,053,209 | 2001-2006 |
| Construction Engineering Services Company, HAMKAR: water | 996,117 | 2,008 | 2010 (to go until 2011) |
| USAID/Armenia Program Support (Management) | 224,572 | 208,917 | 1998-to date |
| Technical supervision | 45,473 | 45,473 | 2004 to date |
| GRAND TOTALS | 35,388,096 | 31,932,953 | 1998 – to date |

* HALO will receive additional $2 million to continue mine clearance until December 2012.




## DANILMAZ FAKTLAR!

Artıq beynəlxalq təşkilatlar da həyəcan təbili vurmağa başlayıblar. Çünki işğaldan azad olunmuş ərazilərimizə xarici KİV nümayəndələri, politoloqlar, ictimai-siyasi xadimlər, diplomatik idarələrin nümayəndələri də səfərlər edirlər. Bu gün yaşanan hadisə isə istənilən zaman istənilən insanın başına gələ, faciə yaşana bilər. Çünki erməni tərəfi hələ də mina sahələrinin xəritələrini bizə təqdim etmir və sabah, birigün də minaların partlayaraq insanların həyatlarına son qoymasının qarşısını almaq, ölümü sığortalamaq mümkün deyil.

### Corc Sorosun "Açıq Cəmiyyət İnstitutu"na bağlı USAİD Ermənistanın işğalı altında olmuş Qarabağ ərazilərində nə az, nə çox - 21 il fəaliyyət göstərib!

Bu arada, SİA olaraq əldə etdiyi danılmaz faktlara əsasən, ABŞ demokratlarına, daha dəqiq desək, Corc Sorosun "Açıq Cəmiyyət İnstitutu"na bağlı USAİD-in Ermənistanın işğalı altında olmuş Qarabağ ərazilərində nə az, nə çox - 21 il (1998-ci ildən 2019-cu ilə qədər) müxtəlif dəstək layihələri həyata keçirməsi bəlli olub. Əlbəttə ki, qanunsuz şəkildə və Azərbaycanın suveren ərazilərini pozmaqla və rəsmi Bakının icazəsi olmadan. Üstəlik, 20 il boyunca (!) USAİD-in qondarma "DQR"də minalardan təmizlənmə əməliyyatlarına hesablanmış layihələr icra etməsi də üzə çıxıb.

**LİNKLƏR AŞAĞIDA:**

https://raskin.house.gov/-2019/8/raski-urges-usaid-administrator-green-continue-funding-landmine-removal-artsakh

https://eurasianet.org/us-ends-funding-for-karabakh-demining

https://anca.org/press-release-/usaid-nominee-fails-to-explain-25-million-shortfall-in-aid-to-nagorno-karabakh/

Məlum olub ki, sözügedən layihələr çərçivəsində 4727 hektar ərazidə 4000-ə yaxın mina və 8000 partlamamış, yaxud tərk edilmiş sursat vahidləri məhv edilib, həmin torpaqlar işğal altındakı ərazilərə qanunsuz məskunlaşmış ermənilərin istifadəsinə verilmişdir.

Onu da qeyd edək ki, 2019-cu ildə sabiq ABŞ prezidenti Donald Tramp USAİD-in işğal altındakı ərazilərdəki fəaliyyətinə xitam verməsi ilə bağlı qərar irəli sürərək, qurumun oradan ayrılmasını tapşırmışdı.

Lakin mövzudan uzaqlaşmayaraq daha bir mümkün ehtimalı da önə sürərək qənaətə gələ bilərik ki, belə olan halda, yəni ərazilərin minalardan təmizlənməsi prosesində USAİD-ə bu sahələrin xəritələri verilib. Əks halda bu qurum heç bir minatəmizləmə əməliyyatlarına qoşula bilməzdi!




### Bu da USAİD-in Qarabağda qanunsuz həyata keçirdiyi layihələrinin digər bir qismi:

**Qarabağın minalardan təmizlənməyən sahələrinin də xəritəsi mövcuddur və həmin xəritənin USAİD-də olması kifayət qədər inandırıcı görünür!**

Daha dəqiq desək, Ermənistan, yaxud qondarma qurumun rəhbərliyi həmin xəritələri ABŞ təşkilatına verməklə ərazilərin minalardan təmizlənməsi prosesinə şərait yaradıb. O zaman həm də paralel olaraq belə bir mümkün ehtimalla çıxış etmək olar: Qarabağın minalardan təmizlənməyən sahələrinin də xəritəsi mövcuddur və həmin xəritənin USAİD-də olması kifayət qədər inandırıcı görünür. Bu zaman istər-istəməz sual yaranır ki, əcəba, USAİD rəhbərliyi hansı səbəblərə görə bu barədə Azərbaycana məlumatı verməyib, özü də ölkəmizdə müxtəlif qrant layihələri təqdim etdiyi halda?!

Söz yox ki, burada əsas kirli siyasi məqsədlərdən biri də Sorosa bağlı Amerika hakimiyyət dairələrinin Azərbaycanın işğaldan azad olunmuş ərazilərdə məskunlaşma prosesini yubatmaq, yenidən "status-kvonu" dəyişmək marağıdır. Ən azından ona görə ki, Cənubi Qafqaz regionunda onların təsir imkanları ümumiyyətlə yox dərəcəsinə enib. Daha dəqiq desək, regionda yeni siyasi aktorların meydana çıxması Sorosa bağlı olan amerikalı siyasi dairələri ciddidən narahat etməyə başladıb.

**Bu qurum minalardan təmizlənmə məsələsində ölkəmizdə bir dəfə də olsun iş aparmayıb, amma bunun yerinə...**

Sonda isə bir xatırlatmanı da etmək yerinə düşərdi. Bu həmin USAİD-dir ki, Azərbaycanda siyasi partiyalarla (əsasən radikal müxalifət), eləcə də siyasiləşmiş və qanadları Qərbə bağlı olan QHT-lərlə işbirliyi qurub, eyni zamanda milli-mənəvi dəyərlərimizə uyğun olmayan bəlli təşkilatlarla (cinsi azlıqların müdafiəsi və s.) işləyib, sabotajçılıqla məşğul olub və nədənsə, minalardan təmizlənmə məsələsində ölkəmizdə bir dəfə də olsun iş aparmayıb. Lakin göründüyü kimi, işğal altındakı ərazilərimizdə uzun illər maliyyələşmə, infrastruktur layihələri ilə yanaşı, həm də minatəmizləmə əməliyyatlarını işə salıb. Görəsən, USAİD bu barədə verilən suallara hansı cavabı verəcək? Ya da çulunu sudan quru çıxarmaq üçün bu dəfə hansı siyasi artistizm bacarığını nümayiş etdirməklə bu suallardan yayınacaq?

Necə deyərlər, biz iddiamızı irəli sürdük, sualımızı verdik və cavabımızı gözləyirik!

**Rövşən RƏSULOV**

# Tarix qalibləri mühakimə etmir, həm də bu qalib haqq işi uğrunda qələbə qazanırsa!

*Vladimir Putin: "Qarabağ Azərbaycandır" və Ermənistan bunu tanımağa məcburdur"*

***Ermənistan və onun səviyyəsiz, əxlaqsız rəhbəri Paşinyanın həyasızlığı o qədərdir ki... Fransız səyyah qraf de-Şolyenin dediyi kimi: "Belə qanmazlarla nə dil tapmaq, nə də anlatmaq olur. Çünki onların hiyləgərliyi olduqca murdar, riyakarlıqları olduqca dözülməz, əclaflıqları isə təəssüf doğurur".Yalanın zaman baxımından bir ömrü olsa da, həqiqət əbədidir. Bəli, həqiqət əbədidir. Bu gün Azərbaycan dövlətinin diplomatik "Dəmir yumruq" siyasəti nəticəsində nəticəsində 20 faizdən çox torpaqlarımızı 30 həsarətdə saxlayan, "Böyük Ermənistan" xülyasına, "24 aprel" stereotipinin ağ yalanlarına 44 gün ərzində son qoyuldu, əzə bildi.***

Bu, Azərbaycanın haqq yolu idi və həqiqət hər zaman yalan üzərində qələbə çalıb. Bu əzm xalq-dövlət birliyinin, inamının qələbəsidir. Bu, Ali Baş Komandanın, Azərbaycan Prezidentinin "Dəmir yumruq" siyasətinin qələbəsinin həqiqətidir. Və bu qələbədə bütün şəhidlərimizin, Xocalı soyqırımı, 31 mart soyqırımı şəhidlərimizin qanı yerdə qalmadı, Azərbaycan yeni reallıq yaratdı, Ermənistanın kapitulyasiyası oldu. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev cənablarının dediyi kimi: "Ermənistan məğlub edilmiş ölkədir. Azərbaycan zəfər çalmış ölkədir, Siz isə öz miskin həyatınızın sonuna qədər məğlub edilmiş, qorxaq damğası ilə yaşayacaqsınız". Bax, budur həqiqət!

Beləliklə, bir daha bütün dünya Azərbaycanın illər boyu haqq yolunda olduğunun şahidi oldu. Çünki haqqın tapdandığını görüb, onu müdafiə etməmək xəyanətdir, deyib ulu babalarımız. Bu gün Azərbaycan dövləti məhz bu haqq yolunda qürurla, inamla, vüsətlə, şərəflə və ləyaqətlə addımlayır. Əlbəttə ki, bu addımların altında Ermənistan tərəfindən Azərbaycan xalqına qarşı bu günədək törədilən soyqırımı, bəşəriyyət əleyhinə cinayət, irqi ayrı-seçkilik və etnik təmizləməyə əsaslanan məqsədyönlü siyasəti əzilib, əziləcək.Azərbaycan dövləti isə, ölkə rəhbərliyi məhz hücum siyasəti nəticəsində qələbələrini qazanır, bundan sonra da qazanacaq, öz doğma xalqı, milləti ilə bir yerdə həmişə olacaq!

### Onlar masada itirdiklərimizi, atəşkəsi pozmaqla, bizə "qaytardılar"

Qaytardılar, atəşsiz, itkisiz, bir güllə belə atılmadan. 10 noyabr Bəyanatına Paşinyan "hansı tində" qol çəkdi, bilinmədi, ancaq qol çəkdi, Ermənistan kapituliasiya oldu. Bu, belə də olmalı idi. Ali Baş Komandanın da təbirincə desək, "sahədə qələbə bizimdirsə, masada da bizim olmalı idi". Bir sözlə, Ali Baş Komandanımız və qüdrətli ordumuz 44 günlük qələbə Zəfəri ilə dünyaya bir daha yalanın qısa ömürlü, həqiqətin əbədi olduğunu göstərə bildi. Tarixi həqiqətin və milli qətiyyətin İlhamından doğan zəfər dünyaya: Qələbə və Qarabağ Azərbaycanındır, deyə məğrurcasına hayqırır!

### Ali Baş Komandan İlham Əliyev: "Mən deyən oldu. Bax, bu gün mən deyən oldu"

Ali Baş Komandanımızın dediyi kimi: "Yaxşı, biz indi öz gücümüzə güvənərək bu torpaqları şəhid verə-verə, qan tökə-tökə azad edirik, bizə "dayanın" deyirsən, ona de ki, çıx. Demir. Bizə deyir dayan. Dedim dayanmayacağam mən. Heç kim məni dayandıra bilməz və dedim tələb edirəm səndən Paşinyan, şəxsən özün, sənin xarici işlər nazirin, nə bilim o biri, bu biri yox, şəxsən özün öhdəlik götürməlisən, tarix verməlisən nə vaxt rədd olursan bizim torpaqlarımızdan. Bax bu bəyanatda o öhdəlik var. Məcbur edirik onu, məcbur etdik, zorla məcbur etdik, başına vura-vura məcbur etdik, bütün bəd əməllərinə görə, o donuzları bizim məscidlərimizdə saxladığına görə. Bizim məscidlərimizdə donuz saxlayan özü donuzdur. İndi bu sənəddə öhdəlik var. Dekabrın 1-nə qədər rədd olacaq qalan işğal edilmiş torpaqlardan. Ona görə məsələnin hərbi yolu var. Amma mən deyirdim, istəyirəm ki, bu hərbi mərhələ də dayansın, keçək siyasi mərhələyə. Nə oldu? Mən deyən oldu. Bax, bu gün mən deyən oldu. Hərbi mərhələ başa çatır, keçirik siyasi məsələyə. Deməli olar ki, bizə maksimum sərf edən sənəd imzalandı. Paşinyan onu imzaladı. Başqa yolu yox idi. Əslində, bu, məğlubiyyətin etirafıdır. Bu, hərbi kapitulyasiyadır. Prinsip etibarilə mən tələb edə bilərdim ki, gəlsin otursun orada, aşağıda, bax orada imzalasın onu. Amma mən belə adam deyiləm. Mən nə üçün kimisə alçaldım. O onsuz da özünü alçaldıb. Bu rəzil duruma özü-özünü salıb. Gərək orada qarnını qabağa verib, sərxoş vəziyyətdə Cıdır düzündə rəqs edəndə bu günü fikirləşərdi ki, gün gələcək hesabını verəcəksən, verirsən. Bax belə. Heç kim bizimlə zarafat edə bilməz. Heç kim Azərbaycan xalqının səbri ilə oynaya bilməz. Heç kim bizi təhqir edə bilməz. Edərsən, dərsini alarsan. Necə ki, dərsini vermişik".

### Paşinyan tarixə yeni erməni dövləti yaradan şəxsiyyətsiz biri kimi düşdü

Belə bir deyim var: "Tarix qalibləri mühakimə etmir, həm də bu qalib haqq işi uğrunda qələbə qazanırsa!". N.Paşinyan isə tarixə "yeni erməni dövləti yaradan" şəxs kimi düşmək istəyirdi, ancaq ermənilərə ən dəhşətli fəlakətləri yaşadan şəxsiyyətsiz birisi kimi düşdü. O, nadanlığı ucbatından yeni Azərbaycan ərazilərini işğal edərək Dağlıq Qarabağın müstəqilliyini təmin etməyin mümkün olacağına inanırdı, yaxud, inandırılmışdı.

İlk cəhd 2020-ci ilin iyulunda Tovuz istiqamətində oldu. Alınmadı. Azərbaycan rəhbərliyi məqsədyönlü şəkildə silahlı qüvvələrimizin bütün potensialını ortaya qoymadı və Ermənistan ordusuna yüngülvari "qulaqburması" verməklə kifayətləndi. Nadanlığı və avantüristliyi üzündən özünü qalib sayan və növbəti təxribatla məqsədinə nail olacağını düşünən N.Paşinyan erməni ordusuna sentyabrın 27-də Azərbaycan ərazisinə hücum əmrini verdi. Qısa müddətdən sonra anladı ki, bu, əslində, hücum əmri deyil, onun siyasətçi və insan kimi ölümünə gətirib çıxaracaq "intihar fərmanı"dır. Qısamüddətli müstəqillik tarixinin ən ağır məğlubiyyətini yaşayan Ermənistanın baş naziri N.Paşinyan hakimiyyəti nəyin bahasına olursa-olsun saxlamaq üçün uzun müddət ermənilərı qırğına verməkdə davam etdi. Ancaq Azərbaycan ordusu onu yerində otuzdurdu. Yenə də V.Putin 2 il əvvəl Rusiya prezidentinə qarşı nümayiş etdirdiyi saymazyana davranışın unudulduğunu sayan Paşinyan hər fürsətdə maksimum yararlanmağa çalışdı.



### Prezident İlham Əliyev: "Ağıllarını başlarına yığmasalar, onların sonu çox acınacaqlı olacaq"

"Baş nazir bəyan edirdi ki, Azərbaycana bircə qarış da torpaq verməyəcəklər. Onlar qondarma "Dağlıq Qarabağ respublikası"nın xəritələrini dərc edib, keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin hüdudlarından kənarda olan yeddi rayonun hamısını da oraya daxil ediblər. Onlar bizim bütün şəhərlərimizin, kəndlərimizin adlarını dəyişiblər. Bizim döyüş meydanında gördüklərimiz, sadəcə, onların 30 il ərzində qurduqları müdafiə xəttini yarıb keçmək deyildi. Biz gördük ki, onlar bu əraziləri verməyə hazırlaşmırdılar. Ona görə ki, orada o qədər iş görülmüşdü, mühəndis kommunikasiyalarına, möhkəmləndici qurğulara o qədər sərmayə qoyulmuşdu ki, bu, onların həmin torpaqlardan çıxıb getməyə hazırlaşmadıqlarını göstərirdi. Münaqişənin qaynar fazası başa çatdıqdan sonra biz onların orada nələr tikdiyi barədə tam informasiya təqdim edəcəyik. Buna görə bir daha demək istəyirəm ki, indi baş verənlərin bütün təqsiri şəxsən Paşinyanın üzərindədir. Bu insan, sadəcə, təsadüfən hakimiyyətə gəlməyib, o, həm Azərbaycan xalqına, həm də erməni xalqına həddən artıq iztirab və qəm-qüssə gətirib. O, Sorosun əlaltısıdır. Bu insan əvvəllər həmişə Ermənistanın Rusiya ilə əməkdaşlığının əleyhinə çıxış edirdi".

Rusiya Prezidenti Vladimir Putin vurğulayıb ki, Qarabağ məsələsində Türkiyənin mövqeyi bu ölkənin Azərbaycanın haqq işini müdafiə etməsinə əsaslanır. V.Putin deyib: "1990-cı illərdə hərbi toqquşmaların gedişində işğal edilmiş ərazilərin qaytarılmasından söhbət gedirdi. Dağlıq Qarabağ beynəlxalq hüquq baxımından Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsidir. Dağlıq Qarabağın müstəqilliyini Ermənistan özü də tanımayıb və bu mənada Dağlıq Qarabağ özü də beynəlxalq hüquq baxımından Azərbaycandır". Rusiya Prezidentinin sözlərinə görə, üçtərəfli bəyanat çərçivəsində döyüş əməliyyatlarının dayandırılması barədə razılıq əldə edilib və tərəflər üçtərəfli bəyanatın imzalandığı anda olduqları mövqelərdə dayanmalıdırlar. Bununla əlaqədar infrastrukturla bağlı texniki məsələlər yaranır. V.Putin vurğulayıb: "Bu məsələləri sakit şəraitdə, danışıqlar prosesinin gedişində aydınlaşdırmaq lazımdır. Ona görə ki, üçtərəfli bəyanat buna əsas verir. Növbəti mərhələdə regionda münasibətlər tam normallaşdırılmalı, iqtisadi və infrastruktur potensialı üzə çıxarılmalıdır. Bu, avtomobil yollarına və dəmir yollarına, Naxçıvana yola da aiddir. Atəşkəs rejiminin pozulması məsələsinə gəldikdə, belə hadisə bir dəfə olub və ümidvaram ki, bu, yeganə hal kimi qalacaq". V.Putinin sözlərinə görə, Dağlıq Qarabağda rusiyalı sülhməramlılar kontingentinin sayının artırılması yalnız bütün tərəflər arasında razılaşma əsasında mümkündür.

### Prezident İlham Əliyev: "Azərbaycan ərazisində Dağlıq Qarabağ adlı ərazi vahidi yoxdur"

"Mən bir daha demək istəyirəm, müharibədən sonra bunu dəfələrlə demişəm ki, Dağlıq Qarabağ münaqişəsi həll olunub, Azərbaycan bu münaqişəni təkbaşına həll edib, həm döyüş meydanında və ondan sonra masa arxasında. Döyüş meydanında qazanılmış Qələbə düşməni məcbur etdi ki, ağ bayraq qaldırsın və təslim olsun, kapitulyasiya aktına imza atsın. Noyabrın 10-da imzalanmış sənəd məhz Ermənistanın kapitulyasiya aktıdır".

Prezident bəyan edib ki, Azərbaycan ərazisində Dağlıq Qarabağ adlı ərazi vahidi yoxdur: "Münaqişə öz həllini tapıb və hesab edirəm ki, bu məsələyə qayıtmaq əbəsdir. Hər halda müharibədən sonra keçən dövr ərzində bunu göstərdik. Birincisi, əgər kimsə hesab edir ki, Dağlıq Qarabağ münaqişəsi həll olunmayıb, bu, onun öz problemidir. İkincisi, bu, çox təhlükəli yanaşmadır. Əgər bu münaqişə həll olunmayıbsa, onda bu münaqişənin həlli necə olmalıdır? O deməkdir ki, noyabrın 10-da imzalanmış Bəyanat qüvvəsini itirib? Yəni, mən bunu belə başa düşə bilərəm. Noyabrın 10-da faktiki olaraq - de-fakto münaqişənin həlli ilə bağlı sənəd imzalandı. Bu, təkcə atəşkəs haqqında sənəd deyil, bəziləri bunu belə qələmə vermək istəyirlər. Açsınlar gözlərini baxsınlar, orada neçə maddə var. Atəşkəs haqqında sənəddə bir maddə olur - atəşkəs, vəssalam. Burada bir çox maddələr var. Bir çox məsələləri əhatə edən maddələr var, o cümlədən kommunikasiyaların açılması. Münaqişə həll olunmayıbsa, hansı kommunikasiyaların açılmasından söhbət gedə bilər? Əgər Münaqişə həll olunmayıbsa, nə üçün onda Azərbaycan, Ermənistan və Rusiya baş nazirlərinin müavinləri görüşürlər, razılığa gəlirlər".

Bəli, hələ də erməni xalqı anlamır ki, Ter-Petrosyan hakimiyyətindən tutmuş indiki küçə "demokratı" başıpozuq, xəstə təfəkkürlü Nikol Paşinyana kimi savadsızların uğursuz hakimiyyət "siyasətinin" əziyyətini elə sadə erməni xalqı çəkir və çəkəcək də. Yuxarıda qeyd etdiytimiz kimi, işğalçı və quduzlaşmış Paşinyan bu günə kimi hansı qələtləri etməyib? "Qarabağ Ermənistanındır, vəssalam!" böyük qələtini edərkən, Azərbaycan Prezidentinin cavabı - NİDA! olmalı idi. Ən əsas məqam isə, Nikol bu cavabı nəinki öz ölkəsində, hətta bütün dünya siyasətçiləri, prezidentləri səviyyəsi qarşısında almaqla yanaşı, həm də dünyadakı erməni havadarlarına da bir "düz yola gəlin" mesajı idi və bununla Azərbaycan dövlət başçısı bu məsələni dəfələrlə təkrar çatdırıb: "Azərbaycan torpaqlarının Ermənistan işğalından azad edilməsi bütün tərəflər üçün qəbulediləndir".

Bir sözlə, Paşinyan ən optimal variantı tapa bilməsə, Ermənistan məhv olacaq. Artıq bu faktın gerçəkliyi göz önündədir... Vladimir Putinin dediyi kimi: "Qarabağ Azərbaycandır" və Ermənistan bunu tanımağa məcburdur".

**R.HÜSEYNOVA**

# “Ermənilərin üzündə utancaq və qorx



**SIA Milli Məclisin üzvü Mahir Abbaszadənin müsahibəsini təqdim edir:**

***- Son vaxtlar Ermənistan ordusunun tör-töküntüləri Azərbaycan-Ermənistan dövlət sərhədi istiqamətində müxtəlif təxribatlar törədirdilər. Kəlbəcər istiqamətində 40-a yaxın erməni sərhədi pozaraq Azərbaycanın içərilərinə doğru hərəkət edib, amma Azərbaycan ordusu onları yerində oturdub və bizim sərhədlərdən çıxarıblar. Ermənistanın son vaxtlar belə bir təxribatının arxasında hansısa bir güclü qüvvələr dayana bilərmi?***

- Bilirsiniz, 9 noyabr sazişində əsas məsələlərdən biri Azərbaycan və Ermənistan arasında olan sərhədlərin dəqiqləşdirilməsi məsələsidir. 1992-ci ildə həm Ermənistan, həm Azərbaycan müstəqillik əldə edib. Amma biz sərhədlərlə bağlı heç bir razılığa gələ bilməmişik. O zaman Dağlıq Qarabağ problemi var idi və Ermənistan Azərbaycan ərazilərinə qarşı işğalını davam etdirirdi və biz heç bir razılığa gələ bilməmişdik. Amma 9 noyabrda Azərbaycanın böyük qələbəsindən sonra üçtərəfli bağlanmış sazişin şərtlərinə əsasən Ermənistan-Azərbaycan sərhədləri dəqiqləşdirilməlidir və bu dəqiqləşmə içərisində də sərhədlərimiz Zəngilan rayonundan başlayır. Zəngilan, Qubadlı, Laçın və Kəlbəcər rayonunu əhatə edən böyük bir sərhəd zolağı Ermənistanla Azərbaycan arasında müəyyənləşir. Zəngilanda, Qubadlıda, Kəlbəcərdə artıq bu sərhədləri müəyyənləşdirə bilmişik. Laçın rayonunda da artıq bu məsələ həll olmaq üzrədir. Amma Ermənistan içərisindən müəyyən revanşist qüvvələr istər Qarabağdakı Ermənistan hakimiyyətinin məğlubiyyətinin, istərsə də Azərbaycanla bağlı olan sərhədlərin dəqiqləşdirilirməsi məsələləri ilə bağlı müəyyən razılığa gələ bilmirlər. Yəni, bunlar öz xalqlarını yenidən müharibəyə səsləyən və işğaldan azad olmuş əraziləri geri qaytarmaq, sərhədlərlə bağlı müəyyən razılığa gəlməməklə bağlı Ermənistan cəmiyyətinə belə bir fikirləri formalaşdırmaqda davam edirlər. Təbii ki, bu revanşist qüvvələrin də əsas məqsədlərindən biri Ermənistanla Azərbaycan arasında sülhün olmaması, sərhəddə həmişə problemlərin olması ilə bağlı çağırışlardır. Amma bu qüvvələr 1992-ci ilin Azərbaycanı ilə hazırda 1992-ci il dövrünü yaşayan Ermənistanı arasında olan fərqi görmürlər. O zamanlar Azərbaycan müstəqilliyini təzə əldə etmişdi, Azərbaycanın ordusu ancaq könüllülərdən ibarət idi, eyni zamanda 1992-ci ildə hakimiyyətdə müəyyən sabitlik yox idi və bundan istifadə edən Ermənistan qüvvələri də Azərbaycanın torpaqlarını işğal edirdilər və bu işğal içərisində də Azərbaycanın sərhədləri var idi. Biz sentyabrın 27-dən başlayaraq əks hücum əməliyyatları nəticəsində, demək olar ki, Azərbaycanın işğal altında olan torpaqlarının hamısını geri ala bilmişik. Azərbaycan ərazi bütövlüyünü ilk dəfə olaraq 1992-ci ildə müstəqillik əldə etdikdən sonra bərpa edib. Bütün sərhədlərdə Azərbaycanın üçrəngli bayrağı dalğalanır. Bütün bunları isə yaradan Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan ordusudur. Cənab Prezident də hər dəfə çıxışlarında qeyd edir ki, əgər Ermənistandakı revanşist qüvvələr özlərinə yığışmasalar təbii ki, dəmir yumruq həmişə qüvvədədir və onlar yenə də Azərbaycan ordusunun gücünü görəcəklər.

***- Erməni təxribatı Paşinyanın Fransaya səfərinə təsadüf edir və Makron da Ermənistanı dəstəkləyən bəyanatlar səsləndirib. Bu olanlar arasında hansısa bir əlaqə varmı?***

- Əslində Fransa dövlətinin verdiyi bəyanatlar ATƏT-in Minsk qrupunun üzvü olan bir dövlətin verəcəyi bəyanatlarla heç yaraşmır. Biz nəzərə alsaq ki, Fransa guya ATƏT-in Minsk qrupunun həmsədr dövlətidir, əslində neytral bir mövqe tutmalı idi. Amma zaman-zaman Fransa əvvəlki mövqeyinə sadiq qaldı və artıq birtərəfli mövqeyini ortaya qoydu. Paşinyanın Avropaya səfəri nəticəsində də, təbii ki, Fransa tərəfindən verilən dəstək də Ermənistanın daxilindəki revanşist qüvvələri biraz da qüvvətləndirərək, onları ürəkləndirir ki, Kəlbəcərlə olan sərhədi pozsunlar və münaqişəni biraz da alovlandırsınlar və göstərsinlər ki, Azərbaycan Ermənistan sərhədində sülh yoxdur. Əslində bugün Azərbaycanın heç bir dövlətin ərazisində gözü yoxdur və biz ata-baba torpaqlarımızdan heç vaxt vaz keçməyəcəyik. Biz 30 illik mübarizəmizdə bunu bir daha göstərdik və Kəlbəcər rayonunda da Azərbaycanın mövqeləri güclüdür. Revanşist qüvvələr hərəkətə keçdiyi zaman layiqli cavablarını alacaqlar.

***- Paşinyan keçirilən birgə mətbuat konfransında bəyan etdi ki, Fransa Ermənistanın bir nömrəli dostu, qardaşı, tərəfdaşıdır. Bəs burada Rusiyanın yeri haradadır?***

- Ermənistan dövləti zaman-zaman öz dostlarına xəyanətləri ilə həmişə seçilib. Vaxt var idi Ermənistan başqa dövlətlərlə münasibətlərdə idi və onlara çox arxalanırdı. İndi biraz zaman dəyişən kimi üzünü Avropaya tutmağa başlayır. Konkret olaraq, Rusiyanın şəxsində biz görürük ki, Ermənistan etibarlı tərəfdaş ola bilməz. Bunu tarix həmişə göstərib. Kim güclüdürsə Ermənistan həmişə o dövlətin yanında olub. Zaman var idi Rusiya ordusunu öz ərazisində yerləşdirərək, özünün təhlükəsizliyini təmin etməklə bağlı məsələləri həll etmişdi, Amma regionda başqa vəziyyət yaranan kimi tez Fransanın tərəfinə keçir və bu o deməkdir ki, Ermənistanda düzgün xarici siyasət həyata keçirilmir. Bu siyasət küçə siyasəti səviyyəsinə enib. Ermənistan tərəfi tarixən etibarlı tərəfdaş, etibarlı dost olmayıb və Rusiya siyasətçiləri də artıq bunu anlamağa başlayıb.

***- Makron belə bir fikir səsləndirdi ki, guya Azərbaycanda erməni əsirləri var, onlar qaytarılmalıdır. Azərbaycanda əsirlər var?***

- Xeyr. Deməli 9 noyabr sazişindən sonra bir qrup erməni terrorçusu Azərbaycan ərazisində terror törətməklə bağlı sərhədi icazəsiz keçərək müəyyən hadisələr törətməyə cəhd ediblər və Azərbaycanın xüsusi xidmət orqanları tərəfindən həmin şəxslər saxlanılıb. Onlar hərbi əsirlər sayıla bilməz. Çünki, beynəlxalq terminologiyada hərbi əsirlər hərbi münaqişə zamanı qarşı-qarşıya gələn dövlətlər tərəfindən əsir götürülmüş şəxslər sayılır. Beynəlxalq hüquq da bunu diqtə edir ki, bu şəxslər hərbi əsirlər sayıla bilməzlər. Bugün Ermənistanla Azərbaycan arasında müharibə getmir. Cənab Prezidentin qeyd etdiyi kimi müharibə artıq dayandırılıb, münaqişə bitib.

***- Erməni terrorçuları ilə ordunun tör-töküntüləri hər dəfə Azərbaycan sərhədini keçdikcə Azərbaycan ordusu onları ya zərərsizləşdirir, ya da həbs edir. Amma buna baxmayaraq, onlar hələ də sərhəd pozmaqda davam edirlər. Bunların arxasında sərhəd bölgəsində gərginlik yaratmağa çalışan Ermənistanın özündə qüvvələr olduğunu düşünmək olar?***

- Bugünləri Ermənistan faktiki olaraq hakimiyyətlik bir vəziyyətdədir. Ermənistanın Nazirlər Kabinetinin siyahısında təxminən nazirlərin yarısı yoxdur. Bəziləri istefalar verirlər, siyasətlə razılaşmırlar. Qarşıdan seçki gəlir. Bu seçkidə müxtəlif oyunlar başlayır. Təbii ki, bütün bunlar Ermənistanda hakimiyyətsizliyin nəticəsində baş verir. Artıq xalqın bir hissəsi başa düşür ki, bu xalqın nicat yolu Azərbaycan və Türkiyə ilə olan münasibətlərdən keçir. Amma digər bir qüvvələr var ki, onlar həm Ermənistanın daxilindədir, həm də xaricdən dəstək alaraq bu revanşist hərəkətlərə yol verirlər. Təbii ki, bugün bu hərəkətləri Qarabağda edə bilmirlər. Çünki artıq Qarabağda münaqişə bitib. Ona görə sərhəddə bu hadisələri törədirlər ki, Azərbaycan Ermənistan sərhədində bu hadisələr baş versin. Təbii ki, burda xarici qüvvələr də, daxili qüvvələr də var və bunlar artıq zaman-zaman sonra dərk edəcəklər ki, Azərbaycanla bu dildə danışmaq olmaz. Çünki güclü ordumuz və sərhəd xidmətimiz var.

***- Rusiyalı politoloq İqor Korodçenko bəyan edir ki, Ermənistanda polis Paşinyanın, ordu isə Sarkisyanla Koçaryanın təsiri altındadır. Azərbaycan sərhədi ərazisində baş verən təxribatların arxasında elə Koçaryanla, Sarkisyanın dayandığını düşünmək olar?***

- Ümumiyyətlə, Sarkisyanla Koçaryan Ermənistanda hakimiyyətə Qarabağ kartının üstündə gəlmiş insanlardır. Onların o zamanlarda səs çoxluğu ilə guya hakimiyyətə gəlmələrinin əsas səbəbləri Qarabağ problemi ilə bağlı olan məsələlərdir. Çox düzgün qeyd edirsiniz ki, bu günləri Ermənistan ərazisində polis Paşinyanın hakimiyyətini dəstəkləyir amma, orduda müəyyən qüvvələr var ki, Sarkisyanı və Koçaryanı dəstəkləyir. Təbii ki, Sarkisyanla Koçaryanın da Qarabağ məsələsinin həll olunmasında, Azərbaycanın işğal altında olan torpaqlarının geri qaytarılması, sərhədlərin dəqiqləşdirilməsi Sarkisyan və Koçaryan hakimiyyətinin tamamilə iflas olması deməkdir. Cənab Prezident Ağdama səfəri zamanı verdiyi bəyanatda qeyd edirdi ki, “Biz Sarkisyanın və Koçaryanın ordusunu məhv etmişik. O ordu bir də Azərbaycan ərazisinə girə bilməyəcək”.

***- Hal - hazırda Laçındakı mövcud vəziyyətlə bağlı nə deyə bilərsiniz?***

- Bilirsiniz, 9 noyabr sazişinə əsasən Laçın rayonunun ərazisinin müəyyən bir hissəsi bugünləri koridor vəziyyətindədir. 44 günlük müharibə çərçivəsində Azərbaycan xalqı həm Azərbaycan ordusunun gücünü, eyni zamanda, Azərbaycan diplomatiyasının zəfərini gördü. Düzdür, Laçın rayonunun bir hissəsi Azərbaycan ordusunun gücü sayəsində işğaldan azad olundusa, amma 9 noyabr sazişinə əsasən digər ərazilər Ermənistan qoşunları bir güllə atılmadan və bir şəhid vermədən çıxarıldı.

***- Laçının mərkəzi rus, yoxsa Azərbaycan qüvvələrinin nəzarətindədir?***

- 9 noyabr sazişinə əsasən Qarabağda yaşayan ermənilərlə bağlı və Ermənistanla olan əlaqədə biz koridorun verilməsinə razılaşmışıq. Həmin koridorun şərtlərinə əsasən Laçının 5 kilometrlik ərazisi, yəni, Şuşanın arxa hissəsindən başlayan yoldan Ermənistana tərəf bir yol var. Bugün o yol bir koridordur. Həmin koridora rus sülhməramlıları nəzarət edir. Təbii ki, Qubadlı istiqamətindən gedərək, Laçının Kəlbəcərə tərəf olan kəndlərini ziyarət etmək istəyən insanlar həftənin cüt günləri sülhməramlıların müşayiəti ilə Laçın rayonunun mərkəzinə keçə bilərlər.

***- Siz deputat olaraq Laçının mərkəzinə gedə bilərsinizmi?***

- Biz ancaq sülhməramlıların icazəsi ilə gedə bilərik. Çünki noyabr sazişinə əsasən Laçının mərkəzinə sülhməramlılar xidmət edir. Bu yaxınlarda Xankəndi ilə Ermənistana 3 il müddətində alternativ yol çəkiləcək. Məndə olan məlumata görə artıq o yolun layihələndirmə işləri gedir. O yol çəkildikdən sonra Laçın rayonunun mərkəzində olan sülhməramlılar yolun mühafizəsi ilə məşğul olacaqlar. Bundan sonra da biz Laçın rayonunun mərkəzinə də sülhməramlıların icazəsi olmadan rahat gedəcəyik.

***- Bir ara belə bir məlumat yayıldı ki, guya 250 nəfər erməni rus sülhməramlılarına xidmət etmək üçün Laçının mərkəzində yaşayır. Siz bu barədə nə deyərdiniz?***

- Məndə olan məlumatlara görə, bu rəqəmlər düzgün deyil. Laçının mərkəzində 2-3 belə erməni var. Onlar da sahibsiz, yiyəsiz insanlardırlar və bəzən orada sülhməramlılara xidmət edirlər. Ola bilsin ki, bu məlumatlar da dəqiqləşdirilmiş məlumatlar deyil. Amma Laçın rayonunun mərkəzində 200 - 250 ailənin olması ilə bağlı məlumatlar tamamilə yalandır. Mən burdan bütün Laçın rayonunun adından deyə bilərəm ki, bizim insanlar tamamilə cənab Prezidentin apardığı siyasəti dəstəkləyirlər. Zaman-zaman istər internet saytlarında, istər televiziyada, bütün mətbuat orqanlarında Laçın rayonunun ağsaqqalları, ziyalıları, gəncləri, keçmiş döyüşçüləri, müharibə veteranları, əlilləri, bütün kateqoriyadan olan insanlar zaman - zaman Cənab Prezidentə təşəkkür ediblər ki, bu 30 illik həsrətimizə son qoymusunuz. Sizin apardığınız siyasət, sizin ordunuzun gücü, şəhidlərimizin, əlillərimizin sayəsində Azər-

# aq baxışlar var idi”

baycanın işğal altında olan torpaqları geri qayıdıb. O cümlədən də Laçın rayonu geri qayıdıb. Biz hər il may ayının 18-i gələndə Laçın rayonunun işğal gününü qeyd edirdik. Biz artıq qələbələri qeyd edirik ki, bütün bunlar da bütün Azərbaycan xalqı kimi Laçın rayonunun insanlarının da həyatında silinməz izlər buraxır.

***- Siz Laçının mərkəzində olmusunuz?***

- Xeyr. Mən Laçın rayonunun mərkəzində olmamışam. Bunu açıq etiraf etmək istəyirəm ki, siz bilirsiniz ki, hökumət adamlarının, millət vəkillərinin, rəsmi adamların bu ərazilərə getməsi ilə bağlı müəyyən icazələr lazımdır. Eyni zamanda, bu həm də onunla bağlıdır ki, bu ərazilər tamamilə minalanıb. Təhlükəsizlik-nöqteyi nəzərdən də daxili işlər orqanlarının və xüsusi xidmət orqanlarının icazəsi lazımdır ki, biz o səfərləri edə bilək.

***- Təqribən neçə kəndimiz hal-hazırda bizim nəzarət zonamızdadır?***

- Laçın rayonunun mərkəzi, Qala dərəsi deyilən kənd və aşağıda çayın kənarında olan kəndlərin bəziləri və Zabux kəndi rus sülhməramlıların nəzarətindədir. Laçın rayonunun digər 125 kəndi və bir şəhər mərkəzi var, onun təxminən 4-5 kəndi və şəhər mərkəzi bugün ermənilərin yox, rus sülhməramlıların mühafizə zolağına daxildir.

***- Hal - hazırda Laçının mərkəzində inzibati binalarda Azərbaycan bayrağı qaldırılıb?***

- Məndə olan məlumata görə 9 noyabr sazişinə əsasən rus sülhməramlıların nəzarət etdiyi bölgələrdə onların postlarında, hərbi texnikasının üstündə rus sülhməramlıların bayraqları asılıb. Amma Laçın rayonunun kəndinə cənab Prezidentin səfəri oldu. Orada su elektrik stansiyasının açılışında, cənab Prezident iştirak etdi. Həm də Laçın rayonu ərazisində Azərbaycanın üçrəngli bayrağını qaldıraraq ordan Azərbaycan xalqına öz müraciətini bildirdi.

***- Sosial şəbəkələrdə bir məlumatla rastlaşdım ki, guya Laçının bəzi kəndlərinə insanlar artıq köçməyə başlayıb. Hətta kamazlarla yük aparıldığı videoları da var idi. Bu barədə nə deyərdiniz?***

- Bu məlumatlar tamamilə səhvdir. Deməli Laçın rayonunun bir cənub, bir şimal hissəsi var. Laçın rayonu şimaldan Kəlbəcər, cənubdan isə Qubadlı ilə sərhəddədir. Laçının mərkəzində isə rus sülhməramlıları fəaliyyət göstərirlər. Laçın rayonunun şimal hissəsinə getmək üçün yollardan biri Qubadlı rayonu ərazisindən, Laçın mərkəzini keçərək o kəndlərə getmək mümkündür. Digər bir yol isə Tərtər rayonundan başlayaraq, Kəlbəcərə və Kəlbəcərdən Laçının o kəndlərinə gəlməkdir. Təbii ki, həmin o karvan gedən zaman təkcə vətəndaşlar getmir. Eyni zamanda, Azərbaycan ordusu özü, orada sərhəd zastavalarının tikintisi, mühafizə zolağının çəkilməsi və hərbçilərlə şəraitin yaradılması ilə bağlı yük karvanları da gedir. İşğal altında olan ərazilər, elə Laçın rayonunun özü də ermənilər tərəfindən tamamilə dağıdılıb. Həyat üçün orada heç bir şərait yoxdur. Təkcə Laçın rayonunun Güləbi kəndində 383 ev var. 383 evdən cəmi 3 evdə ermənilər özləri yaşayıblar, digər əraziləri tamamilə dağıdıblar və gedərkən də həmin o üç dənə evi yandırıblar. Demək olar ki, o kənddə heç yanda yaşamaq mümkün deyil. Laçın rayonunun digər kəndlərində də o vəhşilikləri törədiblər. Bütün ağacları kəsiblər, evləri, sosial obyektləri, işıq xətlərini, su xətlərini dağıdıblar, qaz xətlərini tamamilə aparıblar. Ona görə də cənab Prezidentin də tapşırığı ondan ibarətdir ki, ərazilər tamamilə minalardan təmizlənsin, kommunikasiyalar bərpa olsun, minimum həyat şəraiti yaxşılaşdırılsın. Bundan sonra quruculuq, bərpa işləri keçirilsin, kəndlər tamamilə bərpa olunsun və 30 il məcburi köçkün həyatına məhkum olunmuş insanlar qayıdıb öz ata - baba yurdlarında yaşasınlar. Artıq Zəngilan rayonundan Laçın rayonuna gedən böyük magistral yolun çəkilişinə başlanılıb. Demək olar ki, yolun müəyyən bir hissəsini çəkiblər və orada sürətli işlər gedir və bu işləri də Türkiyə şirkətləri həyata keçirir. Çox keyfiyyətli bir yol olacaq. Onunla bərabər işıq xətləri çəkilir, qaz xətləri, su xətləri çəkilməsinə də başlanılıb.

***- Əhalinin oraya köçürülməsi üçün artıq tikinti işlərinə başlanılıb?***

- Cənab Prezidentin rəhbərliyi ilə işğaldan azad olan torpaqların baş planları hazırlanıb. Bu yaxınlarda Ağdamda təməlqoyma mərasimi keçirildi. Zəngilanda ağıllı kəndin təməlqoyması olub. Füzulidə də aeroportun tikintisi ilə bağlı təməlqoyma həyata keçirilib. Hadrutdan başlayaraq Şuşaya gedən zəfər yolunun çəkilişinə başlanılıb. Laçın rayonunda aeroportun tikintisi ilə bağlı müəyyən işlər görülüb. Yəni bu işlər sürətlə həyata keçirilməkdədir. O ərazilərin bərpası ilə bağlı böyük maliyyə tutumu lazımdır. Ərazilərin bərpası ilə bağlı təxminən 2, 2 milyard manat vəsait ayrılıb. Eyni zamanda, Qarabağa Dirçəliş Fondu yaradılıb və bu Fonda ianələr edilməkdə davam edilir. Bu işlər mərhələli şəkildə həyata keçirilir.

***- Artıq bu işğaldan olan ərazilərin qurulması üçün Baş Plan hazırlanır. Bu Baş Planın hazırlanması siyahısında Ağdərə, Xocavənd, Xankəndi və digər yerlər də varmı?***

- Xocavəndin bizim nəzarətimizdə olan kəndlərində bərpa quruculuq işləri başlanılacaq. Xankəndi və Ağdərə hələ ki, sülhməramlıların mühafizə zolağına daxildir. Eyni zamanda, bu ərazilərdə yaşayan ermənilərin Azərbaycan vətəndaşlığına, Azərbaycan qanunlarına tabe olmaq məsələləridir. Bu ərazilər bizim hüquqi torpaqlarımızdır. Təbii ki, Azərbaycan dövləti bu ərazilərdə də bərpa-quruculuq işlərini davam etdirəcək.

***- Siz yəqin ki, Şuşaya getmisiniz. Şuşaya gedəndə Xankəndinin içindən keçib gedirsiniz?***

- Xankəndinin yanında Şuşa kənd deyilən bir ərazi var. Orada ermənilər var. Mən Şuşaya iki dəfə getmişəm. Bir dəfə yanvarın 2-də, bir dəfə də “Xarıbülbül” festivalında. Demək olar ki, mən o altı, yeddi kənddə cəmi beş, altı erməniyə rast gəlmədim. Məndə olan məlumata görə rus sülhməramlıları onları təlimatlandırıb ki, Azərbaycan maşınları və azərbaycanlılar gələndə siz görsənməyin. Onlarla çox təmasda olmayın. Müəyyən söz-söhbətlər ola bilər. Amma mən ikinci dəfə “Xarıbülbül” festivalına gedərkən yol qırağında, öz bağında işləyə bilən kifayət qədər ermənilər var idi və bəzi erməni maşınları ilə qarşılaşırdıq. Onların bəzilərinin sifətlərində biraz utancaq, qorxaq, nifrət dolu baxışlar da var idi. Əslində biz özümüzü bu torpaqların sahibləri kimi aparırdıq.

***Ayşən Vəli***

# “Azərbaycan və Türkiyə arasında dərin qarşılıqlı hörmət var”



“Azərbaycan və Türkiyə daimi olaraq qardaş münasibətindədir. Bu münasibət bütün istiqamətlərdə öz bəhrəsini göstərir”. Bu sözləri SİA-ya açıqlamasında deputat Eldəniz Səlimov deyib. Onun sözlərinə görə, Azərbaycan və Türkiyə arasında hər bir sahədə müxtəlif tərəfdaşlıqlar vardır: “Bu istər iqtisadi, istərsə də hərbi yöndədir. Azərbaycanın 44 günlük Vətən müharibəsi zamanı Türkiyə bizə daim öz mənəvi dəstəyini göstərdi. Bu mənəvi dəstək təkcə Türkiyədən deyil, həmçinin digər dövlətlərdən də oldu. Türkiyənin bizə göstərdiyi bu dəstəyə görə, Türkiyə hakimiyyətinə, Türkiyə dövlətinə, cənab Rəcəb Tayyip Ərdoğana minnətdarlığımızı bildiririk. Son gündə baş tutmuş görüş ilə əlaqədar onu qeyd edə bilərəm ki, bu səfərin bizim üçün dəyəri çox yüksəkdir. Çünki, Azərbaycan Türkiyə ilə gördüyü bütün tərəfdaşlıq işlərində yüksək səviyyədə nailiyyətlər qazanıb və qazanacaqdır”.

Deputat həmçinin qeyd edib ki, hərbi istiqamətdə Türkiyənin bizə göstərdiyi dəstək hər zaman göz önündə tutulub: “Buna görə də biz bu əməkdaşlığın uzun müddətli davam etməsi üçün əlimizdən gələni edəcəyik. Bu görüşmənin ən əsas əhəmiyyətlərindən biri də iki dövlət arasında olan hərbi münasibətlərin gücləndirilməsidir. Baş Qərargahın ikinci rəisi Korgeneral Selçuk Bayraktaroğlunun Azərbaycana səfəri onu da bir daha sübut edir ki, Azərbaycan və Türkiyə arasında dərin və qarşılıqlı hörmət var. Mən inanıram ki, bu əməkdaşlıqlar sayəsində hal-hazırda olduğumuz mövqedən dəfələrlə yüksək nailiyyətlər əldə edəcəyik”.

***Arzu Elsevərqızı***

# Azərbaycan Ombudsmanı Kəlbəcərdə şəhid olan jurnalistlərlə bağlı bəyanat yayıb




Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Səbinə Əliyeva Kəlbəcər rayonunda Ermənistan tərəfindən basdırılmış minaya düşərək həlak olan mülki şəxslərlə bağlı bəyanat yayıb. SİA xəbər verir ki, bəyanatda deyilir: “Rəsmi mənbələrdən bildirilən məlumata əsasən Azərbaycan Dövlət İnformasiya Agentliyinin və Azərbaycan Televiziyasının işğaldan azad olunmuş ərazilərdə çəkiliş aparan əməkdaşları iyunun 4-də Kəlbəcər rayonunun Susuzluq kəndi ərazisində minaya düşüblər. Çəkiliş qrupunun olduğu nəqliyyat vasitəsinin hərəkət olan yolda tank əleyhinə minaya düşməsi nəticəsində ikisi öz peşə fəaliyyətini həyata keçirən jurnalist və biri dövlət qurumu əməkdaşı olmaqla, üç nəfər həlak olub, dörd nəfər isə ağır bədən xəsarətləri alıb.

Azərbaycan torpaqlarının işğalı dövründə Ermənistan tərəfindən yerləşdirilən müxtəlif növ minalar və digər partlayıcı qurğular 2020-ci ilin 10 noyabr tarixində üç tərəfli bəyanatın imzalandığı gündən bəri 120-dən çox insanın həlak olmasına və yaralanmasına səbəb olub.

Ermənistan siyasi və hərbi rəhbərliyinin vaxtilə işğal altında saxladıqları bu ərazilərə basdırılan minaların xəritələrinin açıqlanmasından imtina etmələri, hətta Ermənistan ordusunun həmin ərazilərdən çıxarkən xüsusilə mülki ərazilərə işarələnməmiş minaları basdırması, son günlərə qədər təxribat diversiya qrupları vasitəsilə yeni minaların baadırılmasına cəhd etməsi onların daha çox insan tələfatına yol açmaqda və regionda yeni münaqişə ocaqlarının yaradılmasında maraqlı olduğunu göstərir.

Regionda insan həyatına və sağlamlığına ciddi təhdid olan bu vəziyyət bizi dərindən narahat edir. Ölkə Ombudsmanı olaraq bu barədə narahatlığımızı dəfələrlə beynəlxalq insan hüquqları qurumlarına bildirərək, insan tələfatının qarşısının alınması məqsədilə Ermənistan rəhbərliyi qarşısında müvafiq tələblərin qoyulması ilə bağlı müraciətlər etmişik. Təəssüflə qeyd etmək istərdim ki, mina xəritələrinin verilməsi ilə bağlı Ermənistana hər hansı bir beynəlxalq təyziqin göstərilməməsi hər gün daha bir günahsız insanın həyatını itirməsinə səbəb olur. Hesab edirik ki, aidiyyəti beynəlxalq insan hüquqları qurumları baş verən bu insan hüquqları pozuntularına etinasız yanaşmamalı və mandatları çərçivəsində müvafiq addımları atmalıdırlar.

Bir daha aidiyyəti beynəlxalq insan hüquqları təşkilatlarına müraciət edərək, baş verən bu insan hüquqları pozuntusuna etinasız qalmamağa, mandatlarından irəli gələn tələblərə məsuliyyətlə yanaşaraq Ermənistan siyasi və hərbi rəhbərliyini cinayət əməllərindən çəkindirməyə çağırırıq.

Ombudsman təsisatı olaraq Ermənistan siyasi və hərbi rəhbərliyinin insan hüquqlarının kobud pozuntusu ilə nəticələnən bu və digər ağır cinayət əməllərinin ifşası və onların ədalət mühakiməsinə cəlb olunması istiqamətində fəaliyyətimizi davam etdirəcəyik”.

# "Gəncə qiyamına səbəb hakimiyyət böhranı idi"



***"Gəncə qiyamı barədə çox deyilib, çox yazılıb, buna hüquqi və siyasi qiymət verilib". Bu sözləri SİA-ya verdiyi açıqlamasında Milli Məclisin Əmək və Sosial Siyasət Komitəsinin sədri, millət vəkili Musa Quliyev deyib.***

Komitə sədri vurğulayıb ki, bu, bizim tariximizdir, tariximizin bir qaranlıq, qara səhifəsidir, eyni zamanda, öyrəniləsi və ibrət çıxarılası, dərs götürüləsi bir səhifədir.

"Gəncə qiyamı niyə baş verdi və yaxud, Gəncə qiyamı baş verməyə bilərdimi, sualına birmənalı cavab vermək indi həqiqətən də mümkündür. Doğrudan da, əgər o zaman hakimiyyətdə olan AXC-Müsavat cütlüyünün böyük səhvləri olmasaydı, hakimiyyətin apardığı siyasət qısa müddət ərzində iflasa uğramasaydı, xalqın etimadını itirməsəydilər və Qarabağ cəbhəsində uğursuzluq baş verməsəydi, yəqin ki, bu qiyam da baş verməyəcəkdi və yaxud, baş tutmaya bilərdi.

Şübhəsiz ki, bu qiyamın təşkilatçısı və həyata keçirən Surət Hüseynov və onun əlaltıları hüquqi məsuliyyət daşıyırdılar və o məsuliyyəti də daşıdılar, həbs də olundular, mühakimə də edildilər, onların cinayətlərinə də hüquqi qiymət verildi. Amma, eyni zamanda bu hadisə niyə baş verdi, sualına gələndə, şübhəsiz ki, Xalq Cəbhəsi hakimiyyətinin apardığı siyasətin doğru olmadığı, xalqa yönəlik olmadığı bir daha ortaya çıxır və dövlətin qurulması prosesində onların müsbət rolu əvəzinə dağıdıcı fəaliyyəti olduğu da ortaya çıxır.

Surət Hüseynov kim idi? Surət Hüseynov, əslində, Xalq Cəbhəsi hakimiyyətinin yaratdığı dırnaqarası bir qəhrəman idi. Xalq Cəbhəsi hakimiyyəti ona Milli Qəhrəman adı vermişdi, onu baş nazirin müavini vəzifəsinə təyin etmişdi, prezidentin Qarabağ üzrə səlahiyyətli nümayəndəsi təyin etmişdi, eyni zamanda o Milli Məclisin deputatı idi və bu qədər səlahiyyətləri gənc yaşında və bu qədər də xüsusi istedadı və savadı olmayan adam üzərinə toplayanda şübhəsiz ki, müxtəlif ölkələrin də xüsusi xidmət orqanlarının nəzarəti altına düşmə etimalı da böyük idi.

Gəncə qiyamının baş verməsinə səbəb, şübhəsiz ki, hakimiyyət böhranı idi. Hakimiyyət böhranı, Gəncə qiyamı da olmasaydı, başqa bir yerdə, istər o zaman Lənkərandamı, Qusardamı, Şəkidəmi, hardasa belə bir hadisə baş verəcəkdi və heç şübhəsiz ki, Xalq Cəbhəsinin hakimiyyəti idarəetmə üsulu iflasa gətirib çıxarmalı idi. Cəmi bir il ərzində bunlar xalqın etimadını itirdilər ki, Əbülfəz Elçibəy öz hakimiyyətini müdafiə etmək üçün xalqı Prezident Aparatının qarşısına dəvət edəndə ora 200-dən çox adam yığılmadı. Halbuki, cəmi bir il ondan öncə minlərlə adam mitinqlərə yığışırdı və Xalq Cəbhəsini dəstəkləyirdi. Amma qısa müddət ərzində dəstəklədikləri insanların onların ümidlərini doğrultmadığının şahidi oldular.

İqtisadi böhran, hakimiyyət böhranı, cəbhədə böhran, torpaqların işğal altına düşməsi, get-gedə Xalq Cəbhəsi hakimiyyətində müxtəlif rəhbər vəzifə tutan insanların özlərinin hakimiyyət iddialarının ortaya qoyulması ilə, istər İsa Qəmbərin, istər İskəndər Həmidovun, istər Rəhim Qazıyevin və digərlərinin artıq hakimiyyətə iddia etmələri ilə yarandı. Bu böhran olmaya bilərdimi, qarşısı alına bilərdimi? Əlbəttə, amma yeganə o halda alına bilərdi ki, xalq hakimiyyətə etimad göstərərdi. Xalq isə hakimiyyətə etimad göstərmədi.

Nə yaxşı ki, Ümummilli Lider Heydər Əliyev o zaman Azərbaycan xalqının təkidli tələbini nəzərə alaraq Bakıya gəldi, bütün məsuliyyəti öz üzərinə götürərək, hətta, mən deyərdim ki, öz həyatını risk altına qoyaraq, Gəncəyə getdi, yerindəcə şəraiti öyrəndi, Surət Hüseynovla görüşdü, onların tələblərini dinlədi və yenidən Bakıya gələrək, Milli Məclisin sədri vəzifəsini öz üzərinə götürərək, bu böhranın dərinləşməsinin, vətəndaş müharibəsinə keçməsinin qarşısını alaraq, dinc yolla həll etməyə nail oldu. Ondan sonrakı dövrlərdə də Ulu Öndər Heydər Əliyevin apardığı siyasət xalqın bütün etimadını qazanaraq yavaş-yavaş dövlətçiliyimizin möhkəmlənməsinə gətirib çıxardı. Məhz buna görə Heydər Əliyevin Milli Məclisin sədri vəzifəsinə seçildiyi 15 iyun tarixini xalqımız haqlı olaraq Milli Qurtuluş günü kimi qeyd edir.

Biz 1991-ci ilin oktyabrında müstəqilliyimizi elan etsək də dövlətimizin həqiqi qurulma tarixi məhz 1993-cü ilin 15 iyun tarixindən başlayır. Məhz həmin hadisədən, 15 iyun tarixindən sonra isə yavaş-yavaş bu siyasi böhran, hərbi böhran, vətəndaş müharibəsi təhlükəsi aradan qaldırıldı, Azərbaycan dövlətçiliyi qurulmağa başladı. Bu hadisələrdən bir il sonra, 1994-cü ilin iyun ayının 4-də də Surət Hüseynov analoji bir hərəkətə, qiyama cəhd etdi, amma qiyam qətiyyətlə yatırdıldı. Çünki, xalq Ulu Öndər Heydər Əliyevə inanırdı, xalq öz liderinin arxasında idi və lider-xalq birliyinin həqiqi gücünü o zaman Azərbaycanı istəməyən qüvvələr də gördü.

Sual oluna bilər, Surət Hüseynovun arxasında başqa dövlətlərin xarici xidmət orqanlarının gücü və marağı vardımı? Bəli, təbii ki, var idi və bunlar da məhkəmə yolu ilə qismən sübut olundu. Təbii ki, var idi və müxtəlif güclər də Azərbaycanda qarşıdurma törətməklə dövləti zəifləmək, parçalamaq, öz təsir dairələrinə salmaq niyyəti güdürdülər", deyə millət vəkili Musa Quliyev bildirib.

***İnam Hacıyev***

## Erməni ombudsmandan "humanizm" çağırışı...



"...Məhkumlara qarşı hər hansı bir təqib və ya mühakimə beynəlxalq hüququ kobud şəkildə pozmaqdır". Qeyd edim ki, bunu erməni ombudsmanı Arman Tatoyanın Azərbaycan hakimiyyəti tərəfindən erməni hərbi əsirlərinə qarşı keçirilmiş mərhələli məhkəmə prosesi ilə bağlı danışarkən deyib.

"Humanist" xalqın "humanist" nümayəndəsi Tatoyanın dediyinə görə, Azərbaycanda hərbi əsir olan Ludvik Mkrtçyan və Aleşi Xosrovyana qarşı keçirilən məhkəmə prosesində guya böyük haqsızlıqlara yol verilib. Amma, Tatoyan burada elə "əsaslar" gətirir ki, adamda bu "humanist xalq nümayəndəsinə inanmaq olmur".

Məsələn, o deyir ki, Azərbaycan tərəfi erməni əsirləri onların etdikləri etiraflar əsasında mühakimə edirlər. Erməni ombudsmana görə, əslində bu belə olmamalıdır: "...Axı, burada etirafçının etdiyi etiraflara şahidlik edənlər olmayıb? Deməli, yoxdursa, o qorxudan da yalanlar etiraf edə bilər". Əslində, həmişə "erməni qəhrəmanlığından" danışan Tatoyanın burada ermənilərlə "qorxu" məfhumunu eyniləşdirməsi "qəribə görünür".

Terrorçu, hər cür cinayətə qadir erməni əsirlərinin Azərbaycan tərəfindən "qanunsuz saxlanıldıqlarını" bildirən Tatoyana adam burada ombudsmandan başqa nə ad versə yarıyar. O, hətta utanmadan, Azərbaycanda saxlanılan terrorçu erməni əsirlərinin saxlama şəraitinin Cenevrə Konvensiyasının tələblərinə cavab vermədiyini də dilə gətirir.

Tatoyanın dediyindən belə başa düşülür ki, Azərbaycanda saxlanılan erməni hərbi əsirləri "qu tükündən hazırlanmış yataq dəstində" bəslənilməlidir. Bu yerdə erməni ombudsmana əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Azərbaycan Dövlət Komissiyasında olan bəzi materialları təqdim etmək istərdim. Tatoyan çətin ki, etiraf edə, amma bütün bunlar faktdır ki, Ermənistan tərəfi həmişə əsir və girov götürülmüş Azərbaycan vətəndaşlarına qarşı soyqırım siyasətini məqsədli şəkildə həyata keçirib. Tatoyan əgər, doğrudan da "humanist" bir ermənidirsə, əslində mən buna şübhə edirəm, onda o yüzlərlə Azərbaycan vətəndaşını, o cümlədən uşaq, qadın və qocaların erməni əsir və girovluğunda saxlanılarkən dözülməz işgəncələrin qurbanı olduqlarını etiraf etməlidir.

Bu gün "humanistlikdən" dəm vuran erməni ombudsmana xatırladaq ki, məhz erməni vəhşilərinin girov və əsirlərə müxtəlif dəhşətli işgəncələr verməsini, onların sinələrinə qızdırılmış xaç nişanları ilə damğa basmasını, dırnaq və dişlərini çıxarmasını, yaralarına duz basmasını, ölənə qədər rezin və dəmir dəyənəklərlə döymələrini, damarlarına benzin yeritmələrini sübut edən faktlar var...

***Ağasəf Babayev***

## Ekspert açıqladı: "İnternet istənilən səviyyədə, sürətdə, keyfiyyətdə deyil"

***"Müasir dövr internet nəslidir. Hər kəs bunu qəbul edir ki, dünyada baş verən bütün hadisələr internetdə öz əksini təpmırsa, sözsüz ki, üzdə olmur və insanların fikrini cəlb etmir". Bu sözləri SİA-ya açıqlamasında analitik-ekspert Aydın Xan Əbilov deyib.***




Onun sözlərinə görə, internetdən istifadə etmək yüksək sürətli şəbəkə qoşulmalarını tələb edir: Təəssüflər olsun ki, Azərbaycanda illər boyu apardığı islahatlar, nazirliklərin dəyişdirilməsi, birləşdirilməsi, yeni adla fəaliyyətə başlaması və yeni nazirlərin təyin edilməsinə baxmayaraq, Azərbaycan interneti istənilən səviyyədə, sürətdə, keyfiyyətdə deyil. 44 günlük Qarabağ müharibəsi və ondan sonrakı hadisələr bir daha göstərdi ki, müharibə cəbhə ilə yanaşı virtual aləmdə virtual savaş formasında, informasiya müharibəsi formasında davam edir. Elə bir sahə yoxdur ki, internetə qoşulmaqla ona daxil olmaq mümkün olmasın. Çox maraqlıdır və qəribədir ki, Azərbaycanda "elektron hökumət1", "elektron hökumət2", "Asan xidmət", "Dost xidməti", bütün dövlət qurumlarının və təhsil qurumlarının elektron resursları və informasiya məkanında saytları, portalları, elektron xidmətləri mövcud olduğu bir vaxtda bunlardan istifadə etmək üçün təəssüflər olsun ki, ölkəmizdə sürətli internet yox dərəcəsindədir. Keyfiyyətli internet bağlantısı ya günün tələblərinə cavab vermir, ya da qiyməti o qədər bahadır ki, əlçatan deyil. Dünyada bir çox transmilli şirkətlər, "facebook", "amazon" və digər şirkətlər kosmos vasitəsilə, hava şarları vasitəsilə bütün dünyanı əhatə edəcək yeni internetə qoşulma imkanları ilə əlaqədar proqramlar işləyirlər. Amma Azərbaycanda hələ də biz "wifi" vasitəsilə normal internetdən istifadə edə bilmirik. Pandemiyanın bir çox fəsadları ilə yanaşı, internetdən istifadə ilə əlaqədar böyük problemləri gördük. Şəbəkənin zəifliyi, yüklənməsi, eyni zamanda insanların daxil ola bilməməsi bir çox məsələlərdə bizə çətinliklər yaratdı.

Aydın Xan Əbilov həmçinin qeyd edib ki, internet və informasiya texnologiyaları hər üç aydan bir dəyişir və yeniliklər gəlir: "Bəs bu yeniliklərə cavab verən internet şəbəkəmiz varmı? Bizim mobil internet və mobil rabitə xidməti göstərən şirkətlərimiz hələ üçüncü və ya dördüncü nəsil internet xidmətləri göstərir. İnternet bağlantısı və internet əlaqəsi ilə əlaqədar sürətli internet qoşulmaları daha çox dövlət qurumları ilə bağlıdır. Təəssüflər olsun ki, bu yöndə də inhisar var və dəfələrlə icmaiyyət tərəfindən tənqid edilməsinə baxmayaraq, internetin bu problemlərinə ortaya çıxaran inhisarların və inhisarçıların ifşa olunması, eyni zamanda ləğv edilməsi ilə bağlı addımlar demək olar ki, atılmır. Hər dəfəsində yeni nazir gələndə fikirləşirik ki, dəyişiklik olacaq, müəyyən yeniliklər olacaq. Çox təəssüf ki, kosmetik dəyişikliklərdən başqa heç bir dəyişiklik görmürük. Ümid edirik ki, bundan sonra məmurlarımız da dərk edəcək ki, internetsiz həyat, inkişaf mümkün deyil. Dövlətin real imkanları ilə yanaşı internet resursları, internetə qoşulma imkanları nə qədər genişdirsə həmin dövlət inkişaf etmiş sayılır.

***Arzu Elsevərqızı***

# 44 gündə tarixi qələbə - Bu, Güclü Azərbaycan Ordusunun potensialının göstəricisidir



*Həmid PƏNAHOV, YAP Qazax rayon təşkilatının sədri*

Məhz düşmənin “yeni torpaqlar əldə etmək” arzusunu sentyabrın 27-də başlanan İkinci Vətən Müharibəsinin 44 gün ərzində tarixi qələbə çalması Güclü Ordumuzun potensialının göstəricisidir. 2016-cı ilin aprel hadisələrində olduğu kimi, Azərbaycanın dinc əhalisinin sıx yaşadığı əraziləri artilleriya atəşinə tutan Ermənistan öz üzərinə götürdüyü bütün öhdəliklərini, beynəlxalq hüququn fundamental norma və prinsiplərini kobudcasına pozaraq, təxribatlarına qarşı Milli Ordumuzun əsəgər və zabitləri döyüş meydanında şücaət göstərərək vaxtilə işğal edilmiş torpaqlarımızın geri qaytarılması missiyasını uğurla həyata keçirməklə düşmənin həmlələrini mərdliklə dəf edərkən öz canını Vətən yolunda fəda etməkdən çəkinmədi, şəhidlik kimi müqəddəs zirvəyə yüksəldi.

Azərbaycan Prezidenti İlham Əliyev xalqa dəfələrlə etdiyi müraciətlərində bildirib ki, biz ədaləti bərpa edirik, ərazi bütövlüyümüzü bərpa edirik, Azərbaycan xalqının ümidlərini doğrulduruq və bundan sonra da doğruldacağıq: “Biz öz torpağımızda döyüşürük, vuruşuruq. Bizim ərazi bütövlüyümüz bərpa edilməlidir və biz haqq yolundayıq. Bizim əsgərimiz xilaskar əsgərdir. Çünki öz doğma dədə-baba torpağını işğalçılardan azad edir”.

Bəli, bu gün qürurla bütün dünyada sözümüz keçərli, başımız ucadır. Bu, Müzəffər Azərbaycan ordusunun gücüdür, potensialıdır. Və 44 gün davam edən İkinci Vətən Müharibəsinin qələbə ilə başa çatması, məhz Azərbaycan Ordusunun güclü, təcrübəli ixtisaslı kadrlarının, ən əsası isə dövlətin ordu quruculuğu və müdafiə sahəsində atmış olduğu uğurlu qayğısının nəticəsidir. Ali baş Komandanın rəhbərliyi ilə bu gün Azərbaycan Ordusu Cənubi Qafqazın ən güclü Silahlı Qüvvələrinə çevrilib. Məhz Ulu öndər Heydər Əliyev tərəfindən Azərbaycanda ordu quruculuğu istiqamətində atılan zəruri addımların layiqli davamçısı Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Silahlı Qüvvələrimiz regionun və dünyanın 50 güclü orduları sırasına yüksəlib. Bu gün 30 illik erməni işğalına məhz güclü ordumuz sayəsində son qoyuldu. Bu, Prezident İlham Əliyevin rəhbərliyi altında ölkəmizdə ordu quruculuğu sahəsində çox mühüm addımlar atılmasının nəticəsidir ki, bu gün regionda ən güclü ordu məhz Azərbaycan ordusudur. Ordumuzun xidməti yüksək səviyyədə aparmaq üçün bütün imkanlar yaradılıb. Prezidentin göstərişi ilə bütün hərbi hissələr, şəhərciklər, hərbi bazalar faktiki olaraq yenidən qurulur. Hərbi hissələrin 90 faizində tikinti-bərpa, yenidənqurma işləri tamamlanıb. Bu gün Azərbaycan dünya miqyasında öz gücünə arxalanan və heç kimdən asılı olmayan ölkədir.

Məhz Qalib Azərbaycan ordusunun rəşadəti nəticəsində ərazisi xeyli böyük olan Kəlbəcər, Ağdam və Laçın rayonları şəhid vermədən, qan tökülmədən geri qaytarıldı.

Prezident İlham Əliyev aprelin 12-də Hərbi Qənaət Parkının açılışında çıxışı zamanı da ordumuzun gücünü qeyd edərək bildirib ki, danışıqlar masasında prinsipiallığı göstərərək, güclü ordu yaradırdıq: “Biz danışıqlar masasında prinsipiallıq göstərərək, eyni zamanda, güclü ordu yaradırdıq. Bütün bu 17 il ərzində bizim əsas büdcə xərclərimiz hərbi xərclər olmuşdur. Biz istədiyimizə nail olduq. Ordunun döyüş qabiliyyəti möhkəmləndi, yüksəldi, ordumuz müasir silah-sursat, texnika ilə təchiz edildi. Biz bir ölkədən asılı olmamaq üçün bu texnikanı bir çox mənbələrdən almışıq. Buna nail olmaq üçün gərək sənin tərəfdaş ölkələrlə sıx əlaqələrin olsun. Çünki silah bazarı çox həssasdır. Burada ancaq kommersiya, biznes maraqları hər şeyi həll etmir. Siyasi məsələlər hər şeyi həll edir. Biz tərəfdaş ölkələrdən elə texnika, elə silahlar almışıq ki, əgər bir mənbədən olan texnikaya bir şey olarsa, bizim ehtiyat imkanlarımız var və İkinci Qarabağ müharibəsi bunu göstərdi”.

Bəli, bu gün böyük inam və qətiyyətlə ifadə edirik ki, Azərbaycanın ərazi bütövlüyünün təmin olunması ilə ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyev 2020-ci ilin Qalib sərkərdəsi, Azərbaycan Ordusu ən peşəkar və döyüş ruhlu Ordu, Azərbaycan xalqı isə ən qəhrəman xalq kimi tarixə qızıl hərflərlə yazılacaq. Və növbəti mərhələdə cənab İlham Əliyevin yeni-yeni hədəflərə hesablanmış strategiyasına uyğun olaraq Azərbaycan inkişaf, tərəqqi yolunda daha da böyük addımlarla irəliləyəcək. Çünki Azərbaycan Ordusu məğlubedilməzdir, onun qarşısında düşmən çox aciz və zəifdir.

# “Hamıdan əvvəl öz sahibini öldürən...paxıllıq...”



“Bu gün biz rəsmi Bakı haqqında hər şey deyə bilərik, amma onların “geri aldıqları” Qarabağ torpaqlarında konkret fayda əldə etmək üçün səriştəli işlərini inkar etmək axmaqlıq olar... Hazırda xarici investorlar fəal şəkildə Qarabağdakı tikinti-quruculuq işlərinə cəlb edilirlər. Etiraf edilməlidir ki, onlar bu işə könüllü qoşulurlar”...

Bəli, erməni etirafıdır, əslində, buna etirafdan daha çox erməni paxıllığı da demək olar. İndi onlar həsədlə Britaniyanın “BP” şirkətinin Qarabağda tikdiyi günəş elektrik stansiyasına tərəf boylanırlar. Doğrudur, boyları çatmır, amma əvvəlki adətlərinə rəğmən boylarından yüksəyə atılmağa çalışırlar, amam unudurlar ki, bu oyunları artıq daha keçərli olmayacaq.

... “Bu gün karbohidrogen sektorundakı uzunmüddətli strateji ortağımız “BP” ilə imzaladığımız sənəd yaşıl enerji və dekarbonlaşdırma sahəsində yeni bir əməkdaşlıq səhifəsi açacaq. Ümid edirəm ki, quraşdırılma gücü 240 MVt olan günəş enerjisi layihəsi üzrə “BP” ilə fəal əməkdaşlığımız Qarabağa xarici investisiyalar cəlb edəcək”.

Erməni saytları Azərbaycanın energetika naziri Pərviz Şahbazovun bu fikirlərini əsas gətirərək, işğalçı olduqları 30 ili ərzində Qarabağda heç nəyə nail ola bilmədiklərini “təəssüflə” etiraf edirlər.

Əslində, onlar bu “etiraflarında” bəzi şeyləri səmimi şəkildə demək istəmirlər. Məlumdur ki, Azərbaycan torpaqları işğal altında olduğu 30 ilə yaxın müddətdə bir neçə beynəlxalq şirkət qanunsuz da olsa Qarabağ və ətraf rayonlarda fəaliyyət göstərib. Bəli, məhz qeyri-qanuni şəkildə... Doğrudur, Ermənistan hökuməti 1999-cu ildən sonra bir neçə xarici şirkəti Qarabağa investisiya yatırmağa sövq edə bilmişdi.

Qeyd edək ki, ermənilər daha çox xaricdə yaşayan erməni iş adamlarını Qarabağa investisiya yatırmağa cəlb etmək istəyirdilər. Amma unutmayaq ki, erməni ermənini hər halda bizdən daha yaxşı tanıyır. Ona görə də, xaricdəki erməni əsilli iş adamlarının əksəriyyəti Ermənistanın onlara etdiyi “şirin” təkliflərdən imtina edirdilər. Xatırlayıram, həmin ərəfədə Ermənistana səməyə yatıran erməni əsilli fransalı bir qadın sonradan aldadıldığını etiraf edərək, Fransadakı həmkarlılarını Ermənistanın “şirin dilinə” uymamağa çağırmışdı.

Amma buna baxmayaraq, ümumilikdə həmin ərəfələrdə Azərbaycanın işğal olunmuş ərazilərində 20-dən artıq ölkənin şirkəti qanunsuz olaraq fəaliyyət göstəriblər. Amma ötən il Qarabağda “gözlənilən təhlükəni” hiss edən xarici investorlar “asta qaçan namərddir” deyib aradan çıxıblar.

...”İndi də İtaliya, Böyük Britaniya, ABŞ, İsrail, Yaponiya və Çin şirkətləri Qarabağda fəliyyət göstərmək üçün Azərbaycana müraciət edirlər. Onlar bunun özləri üçün sərfəli olduğu anladıqları üçün Qarabağa investisiya yatırmaq istəyirlər. Həm də ona görə ki, Azərbaycan rəhbərliyi onlara bütün lazımi təminatları verir, onlar üçün lazım olan bütün qapıları açır”. Deyim ki, bunları yazan erməni saytları sual edirlər: Bəs, ötən 30 il ərzində Ermənistan hakimiyyətinə bu işləri həyata keçirməyə nə mane olurdu?

Təbii ki, həmin ərəfədə Qarabağa investesiya yatıran xarici iş adamlarının hamısı da olmasa, amma ermənilərin çoxu gördükləri işin müvəqqəti xarakter daşıdığını yaxşı anlayırdılar. Buna görə də, onlar səksəkə içində yaranmış vəziyyətdən yararlanmağa çalışıb, daha çox talamağa çalışırdılar. Yeri gəlmişkən, bu gün Qarabağda fəaliyyət göstərmək üçün Azərbaycana müraciət edən dövlətlər arasında, hələlik, Fransa şirkətlərindən heç bir sorğu daxil olmayıb(?). Təbii ki, bunun müvəqqəti xarakter daşıdığını heç kim istisna etmir.

Məsələ bundadır ki, bir müddət bundan əvvəl Fransa Prezidenti Emmanuel Makronun Azərbaycan Prezidenti İlham Əliyevi “Respublika Günü” münasibəti ilə təbrik etməsi ermənilərə yaman yer eləyib. İndi ermənilər, hazırda “yeganə ümid yerləri” bildikləri Fransanın da onları “qurban verə” biləcəyini istisna etmirlər. Təbii ki, bunun da erməni paxıl və xainliyindən irəli gəldiyi başadüşüləndir.

...İmam Əlinin belə bir hədisi var, deyir ki, “...afərin paxıllığa, nə ədalətli peşədir, hamıdan əvvəl öz sahibini öldürər”...

***Ağasəf Babayev***

# YAP Tərtər rayon təşkilatı “Şəhid ailələrinə və Vətən müharibəsi qazilərinə dəstək” layihəsini davam etdirir




YAP Tərtər rayon təşkilatı “Şəhid ailələrinə və Vətən müharibəsi qazilərinə dəstək” layihəsi çərçivəsində şəhid Ayşad Əzizov Qaryağdı oğlu və Tərtər şəhər sakini, qazi Misir Axundov Hilal oğlunun ailəsini ziyarət ediblər.




Görüşlər zamanı bildirilib ki, ölkəmizin ərazi bütövlüyü uğrunda canını fəda etmiş şəhidlərimizin ailələrinə, sağlamlığını itirmiş qazilərimizə hər zaman diqqət və qayğı göstərilir. Dövlət başçısının tapşırıq və tövsiyələrinə uyğun olaraq Tərtər rayonunda da şəhid və qazi ailələri mütəmadi olaraq ziyarət olunur, mövcud problemlərinin aradan qaldırılması üçün tədbirlər həyata keçirilir.

Qeyd edək ki, şəhid Ayşad Əzizov Qaryağdı oğlu ölümündən sonra Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamları ilə “Vətən uğrunda” və “Suqovuşanın azad olunması uğrunda” medalları ilə, qazi Misir Axundov Hilal oğlu “Füzulinin azad olunması uğrunda” “Cəbrayılın azad olunması uğrunda”, “Vətən uğrunda” medalları ilə təltif olunublar.

YAP Tərtər rayon təşkilatının sədri Ramiz Şabanov qeyd edib ki, bu 44 günlük müharibə Ali Baş Komandanımız İlham Əliyevin qətiyyəti və iradəsi ilə müzəffər ordumuzun gücünü, xalqımızın birliyini dünyaya göstərdi. Azərbaycanın igid əsgər və zabitləri Vətən müharibəsində elə bir Şanlı tarix yazdılar ki, bu qəhrəmanlıq dastanı Azərbaycan var olduqca yaşayacaq, gələcək nəsillər tərəfindən öyrəniləcək və Şəhidlərimizin əbədiyaşar xatirələri daima yad olunacaqdır.

Şəhid ailələrinin üzvləri dövlət tərəfindən onlara göstərilən yüksək diqqət və qayğıya görə ölkə başçısı İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya öz təşəkkürlərini bildirblər. Eyni zamanda, şəhid ailələrinin gündəlik qayğıları dinlənildi, onlara ərzaq sovqatı və maddi yardım göstərilib. Allah Vətən torpaqlarının azadlığı və Azərbaycanın ərazi bütövlüyü uğrunda canından keçən bütün Şəhidlərimizə qəni-qəni rəhmət eləsin!

***R.HÜSEYNOVA***

# Mənəviyyatı pozulmuş cəmiyyətin rüsvayçı sonu

***Ermənistanın meyitxanalarının döşəməsində ölmüş erməni əsgərlərinin polietilen torbalara doldurulmuş cəsədləri, yaxud cəsədlərinin hissələri barədə foto və video görüntülər mediada, ələlxüsus işğalçı ölkənin mətbuat səhifələrində gündəmi zəbt edib və bu, erməni cəmiyyətində rezonans doğurub. Erməni əsilli hərbçilərin cəsədlərinə olan hörmətsizlik və təhqir faktının təsdiqi haqlı olaraq etiraz dalğasına, nəinki hərbçi valideynlərinin, hətta ümumilikdə vətəndaşların narazılıqlarına səbəb olub. Bəlkə də erməni tarixində bu ölkə və ölkənin vətəndaşları bu qədər sarsıla bilməzdi ki, erməni hərbçilərinin cəsədlərinə qarşı hörmətsizlik, təhqir bu toplumu bu şəkildə alçaltdı və sarsıtdı.***

Təkcə itgin düşən, yaxud ölən hərbçilərin valideynləri, yaxınları, qohumları deyil, bütövlükdə erməni cəmiyyəti, hətta hər bir erməni, dövlətinin, hakimiyyətinin, özü də guya seçdikləri, bəyəndikləri hakimiyyətin bu rəzil, rüsvayçı, utancverici əməlinə görə xəcalətdən





özünə yer tapa bilmir. Təsadüfi deyil ki, artıq bütün dünyada qeyd olunan əməlinə görə rüsvay olan ölkənin ikinci prezidenti Robert Koçaryan Ermənistana, bu hökumətə görə xəcalət çəkdiyini belə gizlətmir və etiraf edir. "Abovyanda gördüklərimiz sadəcə bir rüsvayçılıqdır", deyən eks-prezident xatırladıb ki, ölən əsgərlərin cəsədlərini, qalıqlarını hara gəldi atan, öhdəsindən gələ bilməyən, qayğısına qala bilməyən hökumət ölkənin qayğısına da qala bilməyəcək, necə ki, qayğısına qala bilməyib.

Maraqlıdır, Ermənistan dövləti, hökuməti düşünübmü ki, əgər ölkəsi uğrunda döyüşən, hətta ölən hərbçilərə, əsgərlərə, vətəndaşlara belə münasibət göstərilirsə, bundan sonra bu ölkə uğrunda ölməyə hazır olan tapılmaz? Düşünürmü ki, bu Ermənistan üçün artıq sondur. Bəli, ölkəsi üçün döyüşlərdə ölənlərin cəsədlərinə bu şəkildə hörmətsizlik, hətta onların təhqir edilməsi həm dövlətin, həm də cəmiyyətin süqutu, sonu deməkdir. Həqiqətən də, əgər ölkəsi üçün həyatını itirənlərə belə münasibət sərgilənirsə, bundan sonra dövlət uğrunda ölməyə kimsə tapılmaz. Oğlunun sümüklərini, cəsədinin parçalarını poletilen paketlərə doldurub zirzəmiyə atan ölkə üçün hansı ana övladını verəcək bundan sonra? Ermənilərə elə gəlmirmi ki, bu, artıq ordunun da sonu deməkdir? Meyitxanalarda cəsədlərlə, cəsəd qalıqları ilə dolu polietilen torbaları, hətta onların foto, video görüntülərini belə görən başqa hansı əsgər və ya zabit vəzifə şərəfini qoruya bilər və ümumiyyətlə bu halda hərbçinin vəzifə şərəfindən söhbət gedə bilərmi?

Bəli, ölkəsi uğrunda ölən hərbçilərin cəsədlərinin təhqir edilməsi hərtərəfli və geri dönməz şəkildə mənəvi pozulmuş bir cəmiyyətin sonudur. Nəinki Ermənistan hakimiyyəti, ümumilikdə erməni cəmiyyəti meyitxanalarda çəkilən foro və video görüntülərlə özünə elə bir damğa vurdu ki, bu damğanın, bu ləkənin üstünü örtmək mümkünsüzdür. Bu, ümumilikdə erməni mənsubiyyətində nə varsa hamısının sonudur və bunu danmaq, bundan boyun qaçırmaq mümkünsüzdür. Çünki, cəsədlərə qarşı təhqir erməni simasızlığının təzahürü, mühiyyətinin inikasıdır.



Bəlli olur ki, döyüşün əvvəlindən, hələ ilk günlərindən belə Nikol və arvadı Anna, ölənlərin sayını, sonra da cəsədləri gizlədiblər. Təsəvvür edək ki, döyüş bitəndən 1 həftə, 1 ay sonra da yox, müharibədən düz yeddi ay sonra, qəfildən cəsədlərin, cəsədlərin qalıqlarının polietilen torbaların içinə salınaraq meyitxanaların döşəmələrinə atılmasını əks etdirən bu fotoşəkil və video görüntülər ortaya çıxır. Bu müddət ərzində də onların valideynlərinə övladlarının itgin düşməsi xəbəri yorulmadan, daha doğrusu utanmadan deyilirdi. Bir çox hallarda da hətta ölüsü, yaxud dirisi ortada olmayan əsgərlərin, hərbçilərin valideynlərinə övladlarının Azərbaycan tərəfindən əsir alındığı barədə də qızıl qırmızı yalanlar söylənirdi. Bunun ardınca da baş nazir sakit şəkildə İctimai Televiziyanın efirində danışır, dəli kimi 7 ay müddətində övladlarını və ya heç olmasa qalıqlarını axtaran valideynlər və qohumlar qarşısında peşmanlıq və kədər hissi bildirmədən səhiyyə sistemindəki islahatların sürətindən dəm vururdu. Bax budur erməni həyasızlığı və simasızlığı.

Heç biri səlahiyyətli, Ermənistan hakimiyyətinin heç bir nümayəndəsi hələ də müharibədən 7 ay sonra zirzəmilərdə gizlənmiş erməni əsgərlərinin cəsədlərinin təsadüfən ortaya çıxmasının səbəbini izah etmir və bu barədə düşünən də yoxdur. Əks halda bu rezonansın fonunda, ad günü keçirmək üçün Nikol Paşinyan Fransaya Makron əmisinin yanına gedib orada kef məclisinə qatılmazdı. Heç kim bunun dövlət cinayəti olduğunu və ölənlərə qarşı təhqir olduğunu söyləmir. Bunun üçün cinayət məsuliyyəti barədə hələ söhbət belə yoxdur. Heç kim içərisində bir qol və üç ayaq olan paketlərdən danışmır. Kimsə bu paketlərin valideynlərə qaytarıldığını, yaxud qaytarılacağını belə söyləmir. Heç kim buna görə kiminsə üzünə tüpürmür, hətta foto və video görüntülərin siyasiləşdirilməməsi tövsiyyəsi edilir.

Ermənilər özləri belə etiraf edirləri ki, bu görüntülərin günahkarları təkcə Nikol, və Anna deyil. Dillərini udan ziyalılar da, Parisdə Nikolın qarşısında bahalı kostyumlarda oturan diaspora erməniləri də, ümumilikdə bu gün susanların hamısı günahkardırlar. Onlara elə gəlir ki, bu unudulacaq, sonra da bağışlanacaqlar. Amma, bunu, erməni belə olsa hansısa valideynin ududacağını təsəvvür belə etmək mümkün deyil və bu görüntüləri seyr edən hansısa erməni valideynin əsgər böyüdəcəyi ağıla belə gələn deyil.

Qəribə toplumdur bu erməni toplumu. Bunlar nə vətən uğrunda döyüşmürlər, çünki vətənləri yoxdur, nə də döyüşənləri, hətta ölənləri saya salmırlar. Vətənimiz uğrunda döyüşərək canlarını qurban edən, hörmət və ehtiramla qarşılanan, nəinki xiyabanlarda, ürəklərdə də yer alan bizim şəhidlərimizlə bu özgə torpaqlarına soxularaq ölən erməni əsgərlərini müqaisə belə etmək niyyətimiz yoxdur, bunlar müqaisəyə belə gəlməzlər. Amma, bunların özləri də olsa həmin o ölülərini heç olmasa torpağa basdırardılar, adi erməni kimi. Bu hörmətsizliyi, bu təhqiri kim, hansı erməni bəşəriyyətə izah edəcək? Bu nə xislətdir, bu nə gendir, deyə suallara necə cavab verəcəklər? Maraqlıdır, bunun altından necə çıxacaqlar ermənilər?

Hələ də II Dünya Müharibəsinin izlərini araşdıran və qalıqları müəyyənləşdirən, DNT-ni identifikasiya edən ölkələr var. Hələ də bu müharibədə ölən yaxınlarını axtaran vətəndaşlar, vətəndaşlarını tapan və sonra hərbi şərəflə dəfn edən dövlətlər var. Yəni, az qala bir əsrə yaxın vaxt keçməsinə rağmən, hələ də öz əsgərinin məzarını belə axtaran, həmin məzarı tapdığı zaman, orada heykəl ucaldan, əsgərinə, onun şərəfinə hörmət bəsləyirlər dövlətlər. Bəs Ermənistanda necə edirlər? Bir əsirdən sonra axtarmaqları başlarına dəysin, ölənlərin dərhal tapılan cəsədlərini belə 7 ay zirzəmilərdə saxlayır, çürüdüb təhqir edirlər. Bu necə ölkə, bu necə dövlətdir? Bununla lovğalanırlar dünyada?

Görünür ermənilərin boş yerə də olsa lovğalanmaları bundan sonra heç cür mümkün olmayacaq. Əvvəla ona gör ki, bu rüsvayçılığın, əvvəlcə 44 günlük müharibədən son dərəcə rəzil şəkildə məğlubiyyətlə çıxmaları, sonra da cəsədləri meyitxanalara atıb onlara qarşı hörmətsizlik etmələri, təhqir etmələri buna imkan verməz. Ermənilərin alınlarında qalan rüsvayçı damğa mövcudluqlarının sonuna kimi onları izləyəcək və bununla necə lovğalana bilərlər? Digər tərəfdən də bu rüsvayçılıq, ermənilərin, mənəvi pozulmuş cəmiyyətin həm də rüsvayçı sonu oldu.

**İnam Hacıyev**

# Haylar kimdir və bu bölgəyə haradan gəliblər?

## *Erməni daşnak millətçilərinin "böyük Ermənistan" iddiaları Qafqaz bölgəsində milli qırğınlara gətirib çıxarmışdır*

***Tam qətiyyətlə və əminliklə, eləcə də faktlara əsaslanaraq demək olar ki, son 200 ildə Qafqaz ərazisində törədilən qırğınların, dəhşətli dağıntıların baiskarı ermənilər olub. Bu terrorçu toplumun Azərbaycan xalqına qarşı düşünülmüş şəkildə həyata keçirdiyi etnik təmizləmə və soyqırımı siyasəti çox ağır nəticələrə, milli faciələrə gətirib çıxarmışdır. Erməni avantüristləri və onların havadarları düşünülmüş şəkildə qeyri-insani siyasəti yeridərək azərbaycanlıları indi Ermənistan adlandırılan ərazidən didərgin salmışlar. Bu zaman minlərlə azərbaycanlı öldürülmüş, yaralanmış, kənd və qəsəbələr, şəhərlər darmadağın edilmişdir. İstintaq araşdırmaları ilə sübuta yetirilib ki, 200 il ərzində ermənilər 2 milyona yaxın azərbaycanlını etnik mənsubiyyətinə görə öldürmüşlər.***

### Tarixi gerçəkliklər

XIX əsrin əvvəllərindən başlayaraq Rusiya imperiyası tarixən Azərbaycan ərazisi olan Borçalı, Gəncə, Şəki, Şirvan, Lənkəran, Qarabağ, İrəvan və Naxçıvan bölgələrini işğal etməyə başlamışdır. Bu, azmış kimi, Osmanlı İmperiyasına olan nifrətini gizlədə bilməyən Çar Rusiyası daha məkrli planı həyata keçirməyə başlamışdır. Belə ki, azəri türklərinin köməyi ilə öz dövləçiliyini qoruyub saxlayan İran, Rusiya imperiyası ilə birlikdə Anadoluya məkrli niyyətlər üçün qul qismində gətirilən hayların xəyanətkar xislətindən istifadə edərək, zaman-zaman türklərə qarşı deportasiya planlarını həyata keçirmişlər. I Pyotr 1723-cü ildə Bakını işğal etdikdən sonra orada və Dərbənd şəhərində erməniləri yerləşdirməyə başladı. 1768-ci ildə II Yekatrina "ermənilərin qorunma altına alınması haqqında" fərman imzaladı. 1802-ci ildə çar I Aleksandr öz məktubunda Azərbaycan türklərinin qənimi olan N.Sisiyanova yazırdı: "Nəyin bahasına olursa-olsun, Azərbaycanın bu və ya digər xanlıqlarında ermənilərdən istifadə olunmalıdır". 1801-ci ildən müasir Azərbaycan əraziləri işğal olunmağa başlayır. Qərbi Azərbaycandan azərbaycanlıların ilk deportasiyası 1801-ci ildə Şərqi Gürcüstanın Rusiyaya birləşdirilməsindən sonra baş vermişdir. Belə ki, Şəmşədil və Lor Pəmbək əyalətlərinin rusların əlinə keçdikdən sonra yerli əhali oranı zor gücünə tərk etməyə məcbur edilmişdir. Bunu 13 iyul 1801-ci ildə erməni əsilli general Lazarevin Qafqaz ordusu komandanı Knorrinqə göndərdiyi raportda da öz əksini tapmışdır: "Pəmbək əyalətinin 14 kəndinin 5-6 min nəfərə qədər əhalisi İrəvan xanlığının ərazisində özlərinə sığınacaq tapmışdır". 1804-cü ildə İrəvan xanlığından qaçan və Rusiya təbəliyini qəbul edən 2 minə qədər haylar həmin boşaldılan kəndlərə yerləşdirilmişdir. Elə həmin il rus ordusu Qarapapaqların yaşadığı Şörəyel mahalını işğal edirlər. 1807-ci il rus-türk müharibəsindən sonra onlar İrəvan xanlığının və Qars paşalığının ərazisinə köçmək məcburiyyətində qalırlar. 1805-ci ildə (XIX əsr) Qarabağ xanlığı ilə Rusiya arasında müqavilə bağlanılıb. Həmin müqavilə əsasında Qarabağ xanlığı Rusiyaya tabe olur Məhz bundan sonra 1804-cü ildə Gəncə, 1806-ci ildə Bakı, 1809-cu ildə Lənkəran Rusiya tərəfindən işğal olundu. Ən gec işğal olunan ərazilər İrəvanla Naxçıvan olmuşdur. Rusiya 1826-cı ilə qədər (XIX əsr) bu əraziləri tam işğal edə bilməyibdir. Ruslar 1804-1813-cü illər ərzində İrəvan şəhərini tutmağa iki dəfə cəhd etsələr də, cəhdləri boşa çıxmışdır. Rus ordusu yalnız 1827-ci ilin 26 iyununda Naxçıvanı, 20 sentyabrında Sərdarabadı, 1 oktyabrda isə İrəvan qalasını tuta bildilər. İrəvan qalasının tutulması zamanı başda Eçmiadzin arxiyepiskopu Nerses olmaqla, ermənilər satqınlıqla məşğul olmuşdular. İrəvan işğal olunan zaman ətraf kəndlərdə yaşayanlar oranı məcburi şəkildə tərk etməli olmuşlar. Bu fakt qraf Paskeviçin 27 iyul 1827-ci ildə qraf Nesselroda göndərdiyi məktubunda da 65 İlham Əliyev öz əksini tapmışdır: "Qarapapaqlardan 100 ailə və ayrımlardan 300 ailə Qarsa, tanınmış Uluxanlı tayfasından 600 ailə Bəyazidə, m üsəlman kurdləri-səlallılar Muşa köçmüşlər. Qarapapaqlılardan digər 800 ailə Arazı keçərək İrəvan xanı Hüseyn xanın qardaşı Həsən xanın dəstəsinə qoşulmuşlar. 700 ailə kürdcamədənlilər, 400 ailə birukinlilər, 400 ailə dovşanlılar, 200 ailə çobankerinlilər, 1000 ailə zilani-kürdləri də onlarla birlikdə Türkiyəyə keçmişlər". "Türkmənçay" (10 fevral 1828) müqaviəsindən sonra isə 21 mart 1828-ci ildə imperator I Nikolayın fərmanı ilə əzəli Azərbaycan torpaqları olan Qarabağ, Naxçıvan və İrəvan xanlıqlırının ərazisində "erməni vilayəti" yaradıldı ki, onun da 9700 əhalisinin 7331-i azəri türkləri idi. Qafqazda imperiyalar vs erməniləirin Azərbaycart ərazilərinə köçürülməsi "Türkmənçay" müqaviləsinin XV bəndinə uyğun olaraq 1828-1830-cu illər ərzində İrəvan, Naxçıvan və Qarabağ xanlıqlarının ərazisinə İrandan 40 min, Türkiyədən isə 84600 erməni köçürüldü.

Hərbi müdaxilə zamanı yüzlərlə kənd boşaldıldı və minlərlə insan qətl edildi. Bütün bu soyqırımı siyasətinə baxmayaraq, Rus imperiyasının apardığı siyahıyaalmaya əsasən 1897-ci ildə İrəvan quberniyasında 313 178 azərbaycanlı yaşayırdı.

### Uydurma erməni "ziyalıları"nın tarixi saxtalaşdırmaq cəhdləri

Erməni tarixçilərinin bəzi əsərlərində tarixi hadisələr, faktlar "böyük Ermənistan" ideyası naminə bir tərəfli qaydada təhrif olunur. Guya "böyük Ermənistan" adlı mif




yüz illər boyu Xəzər dənizindən Qara dənizədək olan sahəni əhatə edirmiş. Ermənilərə görə "Ermənistan dövləti" e.ə II -I əsrlərdə mövcud imiş. Hansı ki, Alban tarixçisi M. Kalankatlının "Alban tarixi" əsərində heç yerdə erməni adı çəkilmədiyi halda, ənənəvi olaraq erməni tarixçiləri coğrafi adları özlərinə məxsus bir tərzdə təhrif edərək, Araliq, Qara və Xəzər dənizləri arasında yerləşən ərazini Ermənistan, orada yaşayan əhalini isə ermənilər adlandırırlar. Əgər Albaniya Ermənistanın tərkib hissəsi olsaydı, onda bütün qədim erməni mənbələrində bu ölkənin adı "Ağvan" yox, "Hayastan" olardı. Azərbaycanın Kiçik Qafqaz dağlarının cənub-şərq ətəklərindən başlayaraq Kür və Araz çayları arasındakı ərazisini əhatə edən tarixi Qarabağ vilayəti qədim dövrlərdə və erkən orta əsrlərdə Qafqaz Albaniyasının tərkibində olmuşdur. XX əsrə qədər Dağlıq Qarabağ anlayışı mövcud olmayıb. "Artsax" adlanan yer Albaniyanın əyaləti olmuş, Atabəylər, Qaraqoyunlu, Ağqoyunlu və Səfəvi dövlətləri tərkibində Qarabağ adlanmışdır. Albaniyanın Artsax vilayəti 12 kiçik inzibati ərazi vahidindən ibarət olmuşdur. 14 may 1805-ci il tarixdə "Kürəkçay" sülh müqaviləsinə görə Qarabağ xanlığı Rusiyanın tabeliyinə keçmiş, 1822-ci ildə isə rəsmi olaraq ləğv edilib, Qarabağ əyalətinə çevrilmişdir. 1840-cı il islahatı ilə Qarabağ əyaləti ləğv olunaraq əvəzində Şuşa qəzası yaradılmış, qəza əvvəl Kaspi vilayətinin, 1868-ci ildən isə Yelizavetpol (Gəncə) quberniyasının tərkibində olmuşdur. XIX əsrin 20-ci illərində Yermolovun tələbi və təkidi ilə keçirilən siyahıyaalmada Qarabağ regionunda yaşayan 18.563 ailədən yalnız 1559-u (cəmi 18 %-i) erməni ailəsi olmuşdur. Bundan bir neçə il sonra (1832-ci il) aparılan kameral sayıma görə, İran və Türkiyədən köçürülən erməni abidələrinin hesabına Qarabağda ermənilərin sayı artmışdır. XIX əsrin 20-30-cu illərində Zaqafqaziyaya o cümlədən, Qarabağa 200.000 errnəni köçürülür. (N.İ.Şavrov: Novaya uqroza russkom u delu v Zaqafkazye; predstoyaşaya rasprodaja Muqani i narodtsam. SP-b.1911, s.59) Azərbaycanlıların deportasiya tarixi isə XIX əsrin əvvəlində, yəni 1801-ci ildən başlayır. İlk dəfə olaraq, rus ordusu indiki Ermənistan ərazisindən- 14 kənddən azəri türkünü deportasiya etdilər. Yəni azərbaycanlıların deportasiya olunmasının tarixi 200 il əvvələ gedib çıxır. Azərbaycanlıların deportasiya olunduğu həmin ərazilərə ermənilərin köçürülməsi həyata keçirilib. Rusiya ilə İran arasında gedən 1804- 1813 və 1826- 1828-ci illər müharibəsindən sonra imzalanan "Gülüstan" (1813-cü il 12 oktyabr) və "Türkmənçay" (1828-ci il 10 fevral) müqavilələri ilə Azərbaycan Rusiya və İranın məkrli işğalçılıq siyasətinin acı nəticəsi olaraq faciələr dolu həyat yaşamağa məhkum edildi. Azərbaycan xalqı iki yerə bölündü və Azərbaycanın şimalı Rusiyanın, cənubu isə Qacar dövlətinin (1936-cı ildən bu dövlət İran adlandrıldı-İ.Ə.) idarəçiliyinə keçmiş oldu. Diqqətçəkən müdhiş məqam ondan ibarətdir ki, Rusiya çarı 1-ci Nikolay 21 mart 1828-ci ildə Naxçıvan və İrəvan ərazisində erməni məhəllələrinin yaradılması haqqında 16 maddədən ibarət olan qərar qəbul etdi. Eyni zamanda, "Türkmənçay" müqaviləsinin 15-ci bəndinə əsasən ermənilərin İrandan Naxçıvan, İrəvan və Dağlıq Qarabağa köçürülməsi prosesi həyata keçirilməyə başladı. Bunun da azərbaycanlılar öz vətənlərində, doğma yurdlarında sıxışdırılmağa başlamışlar. Rusiya ilə Turkiyə arasında 1828-1829, 1877- 1878 müharibələrinin sonlarında da ermənilərin Türkiyədən Azərbaycan ərazilərinə köçürülməsi siyasəti həyata keçirildi. Ümumilikdə, 1829- 1830-cu illərdə İrandan 40 min, Türkiyədən isə 84 min 600 erməni Azərbaycanın müxtəlif ərazilərində yerləşdirilmişdir.

### Dünyanın vəhşi, terrorçu milləti - ermənilər

Erməni tarixçisi kimi tanıdılan Moisey Xorenatsiyə görə, ermənilərin ağıldan kəm ulu babası Hayk Nuh Peyğəmbərin nəslindəndir. Amma nə M.Xorenatsi, nə də digər qədim tarixçilər Urartu dövlətinin ermənilərə aid olduğu barədə hər hansı bir məlumat verməmişlər və verə də bidməzdilər. Çünki bu heç bir bəlli tarixi, dəlil sübutu olmayan, cəfəngiyyatdır. Bəli, ilk dəfə müasir Türkiyə ərazisində "böyük Ermənistan" dövlətinin olduğunu sübut etmək üçün belə gülünc və əsassız cəhdlər göstərilmişdir. Bu, Birinci Dünya müharibəsi zamanı Qərb dövlətləri və Rusiya imperiyasının Osmanlı imperiyasını saxta "erməni Genosidində" ittiham etməkdən ötrü hazırlanmış bir tələ idi. Çox təəssüflər olsun ki, çirkin siyasət oyunları ucbatından qardaş Türkiyə hələ də ondan qurtula bilməmişdir. 1905-1907-ci illərdə Rusiyada baş verən qarşılıqlardan istifadə edərək, planlı şəkildə Bakı, Şuşa, Zəngəzur, İrəvan, Naxçıvan, Qazax, Ordubad, Eçmiadzin və Cavanşir bölgələrində ermənilər və onların havadarlarının törətdiyi qırğınlar nəticəsində yüz minlərlə azərbaycanlı, gürcü, kürd, yəhudi, ləzgi və digər xalqların nümayəndələri məhv edilmişdir. İrəvan və Gəncə quberniyalarının 200 kəndi, Şuşa, Cəbrayıl və Zəngəzur qəzalarının 75 kəndi dağıdılmış, əhalisi isə deportasiya edilmişdir. 1905-1907-ci ilə hadisələrindən sonra azəri türklərinə qarşı repressiya gizli formada həyata keçirilmişdir. Bunu o zamankı statistik məlumatlar da təsdiq edir. Belə ki, əgər İrəvan quberniyasının 5 qəzasında ümumi əhali 1916-cı ildə 1831-ci illə müqayisədə 40 dəfə artmışdırsa, həmin rnüddət ərzində azəri türklərinin sayı cəmi 4,6 dəfə artmışdır. Bu tükürpədici rəqəmlər erməni şovinistlərinin Rusiya imperiyasının himayəsi altında həyata keçirilən "azərbaycanlısız Ermənistan" planını açıb göstərir.

8 avqust 1905-ci il - Şuşada Cənubi Azərbaycandan olan 17 nəfər azərbaycanlı fəhlə erməni silahlıları tərəfindən vəhşicəsinə qətlə yetirilir. Həmin gün Vəng kəndinin 300-dən çox silahlı erməni sakini quldurcasına yaxınlıqdan keçən azərbaycanlı karvanına basqın edirlər; tacirlər öldürülür, əmlakları talanır. Sonra ermənilər qonşu müsəlman kəndinə basqın edərək, burada kənd sakini Abbas bəyi, onun oğlunu, qardaşını və bir neçə nökər-naibini amansızlıqla öldürürlər. Az sonra kəndin bütün sakinləri erməni yaraqlıları tərəfindən qəddarcasına öldürülür, onların evləri isə yandırılır. Ermənilərin başladıqları Şuşa qırğını 10 gündən çox davam edir.

Ardı Səh. 14

# Haylar kimdir və bu bölgəyə haradan gəliblər?

## *Erməni daşnak millətçilərinin "böyük Ermənistan" iddiaları Qafqaz bölgəsində milli qırğınlara gətirib çıxarmışdır*

**Əvvəli-Səh-13**

15 avqust 1906-cı il - Son bir həftə ərzində müsəlmanların yaşadıqları Oxçu, Şəbədək, Xələc, Qatar, Karxana, İncəvar, Çöllü, Yeməzli, Saldaşlı, Moltalar, Batuman, Atqız, Pirdavud, Zutul, Güman, İyilti, Sənalı, Minənəvur, Fərcan, Qalaboynu, Əcəbli, Buğacıq və digər kəndlər erməni quldur birləşmələri tərəfindən dağıdılıb talan edilir. 200 nəfərdən çox müsəlman qətlə yetirilir. Erməni işğalçı qəsbkarlarının xalqımıza qarşı etdikləri vəhşiliklər, həyata keçirdikləri qanlı hadisələr yüzlərlə, minlərlədir. XX əsrin əvvəllərində baş verən bu kimi hadisələr Zəngəzur, Naxçıvan və Qarabağ ərazilərində daha intensiv xarakter almışdır. 1918-ci il daşnak quldur dəstələrinin Naxçıvan və Dərələyəz qəzalarına eləcə də Qarabağa qanlı hücumları ilə də yadda qaldı. Daşnak quldur dəstələrinin təşkilatçı və başçılarından biri, Azərbaycan və Türkiyə milli demokratik hərəkatının qatı düşməni olan Andranik Ozanyanın silahlı, quldur dəstəsi Yaycı, Aza və digər kəndlərində rastlarına gələn bütün türk əhalisini qırdı. Təkcə Yayıcı kəndindən 2500 nəfəri öldürərək, meyitlərini Araz çayına tökmüşdür. ("Soobşeniye Zakavkazskoqo krayevoqo komiteta rossiyskoy kommunistiçeskoy partii (bolşevikov)", N° 6-7, iyun-iyul 1919 qoda, Tifiis). Az müddət ərzində soydaşlarımız tərəfindən qulağı kəsilən Andranik Ordubad dairəsinin əsas hissəsini, Culfa stansiyasını və ətraf kəndlərin bir hissəsini öz nəzarəti altına alır. (Q. Madatov: Pobeda sovetskoy vlasti v Naxiçevane i obrazoevaniye Naxiçevanskoy ASSR. Baku, 1968, s. 53.) Andranikin həyasızlığı və təkəbbürü o yerə çatır ki, iyunun ortalarında o, Naxçıvan şəhərini tutmağa cəhd göstərir, lakin onun bu təşəbbüsü baş tutmur. Belə olanda daşnaklar Nehrəm kəndinə hücum edirlər, lakin burda da onlar güclü müqavimətə rast gəlirlər.

**8 may 1918-ci il...**

AMEA İnsan Hüquqları İnstitutunun araşdırıcı qrupu tərəfindən müəyyənləşdirilmişdir ki, təkcə 1918-ci ildə erməni silahlı dəstələri tərəfindən 400 min azərbaycanlı, 120 min gürcü, 22 min ləzgi, 15 min kürd və 3 minə qədər yəhudi öldürülmüşdür. Əlbəttə, ermənilər tərəfindən tonqallarda yandırılan körpə uşaqları, qarınları xəncərlə yırtılmış hamilə qadınları, üzlərinə bıçaq, xəncər və süngü ilə xaç şəkli çəkilmiş qızları, ayaqları nallanmış gəncləri, kürəklərinə qaynar samovar bağlanmış oğlanları, başlarına mismar çalınmış cavanları, qulaqları, bədənlərinin müxtəlif orqanları kəsilmiş kişiləri, yem üçün quduz itlərə atılan məsum körpələri, kəsilmiş saçlarından çatı toxunan qadınları, kürəklərinə qızdırılmış dəmirlə möhür vurulmuş günahsız insanları, ağlasığmaz işgəncələrdən sonra çılpaq-çılpaq ağaca asılmış qocaları, deyilməsi və yazılası işgəncələri unutmaqmı olar? 1932-ci ildə Z.Korkodyanın İrəvanda çap olunmuş "Sovet Ermənistanının əhalisi. 1831-1931" kitabında göstərilmişdir ki, əgər Ermənistanda 1918-ci ildə 575 min azəri türkü var idisə, artıq 1920-ci ildə onların sayı 10 minə düşmüşdü. Qalanları isə ya qırılmış, ya da deportasiya olunmuşdur. 25 sentyabr 1918-ci ildə "Azərbaycan" qəzeti yazırdı: "Türkiyənin Avropa müharibəsində iştirakında daşnaklar özlərinin böyük arzularını ən yaxın vaxtlarda həyata keçirmək imkanı gördülər. Lakin "böyük Ermənistan" xülyası etnik cəhətdən təmiz ərazinin yaradılmasını tələb edirdi. Və əvvəlcə Qars və Qars vilayətinin müsəlman əhalisinin sistematik surətdə döyülməsi başlayır". Diqqətinizi belə bir fakta cəlb etmək istəyirik ki, rəsmi tarixdə göstərildiyi kimi, Qars vilayətində türk qoşunları deyil, məhz erməni qoşunları cinayət və dəhşətlər törətmişdi. "Azərbaycan" qəzeti 13 noyabr 1918-ci ildə yazırdı: "İrəvan quberniyasının hər yerində müsəlmanların həyatı tükdən asılı idi; bu vaxt erməni ştabının əmrilə 200-dən çox müsəlman kəndi qılıncdan keçirilmiş, yandırılmış və 200 minə yaxın müsəlman kəndlisi evsiz-eşiksiz qalmışdı; bütün bunlara aclıq və xəstəlik də əlavə edilmişdi". Qars vilayətində erməni qoşunları dinc əhaliyə qarşı qəddarlığının həddi olmayan vuruşa başladılar. Bu, həmin erməni hərbi hissələri idi ki, "Brest-Litovsk" sülh müqaviləsinə görə Rusiya Respublikası bunları tərxis edib buraxmalıydı. Ermənilər özləri Qarsın dinc əhalisinə qarşı daşnak başkəsənlərinin göstərdikləri vəhşilikləri qismən də olsa təsdiq edirdilər. 30 iyun 1930-cu ildə ermənicə "Kommunist" qəzetində dərc ediimiş "Müstəqil Ermənistan" məqaləsində qeyd edilirdi: "On illərlə ya ölüm, ya azadlıq",- deyə bağıran daşnak qatillər, avantüristlər və satqınlar, quldur mauzerçilər... inqilabi Bakını hədələyirlər". Qars vilayəti azad edildikdən sonra türk ali baş komandanlığı Qafqaz cəbhəsindəki qüvvələri yenidən təşkil edib, 4 və 1-ci ordu korpuslarını Yaqub Şövqi paşanın komandanlığı altında Qars qoşunları qrupunda birləşdirdi. Qars qoşunları qrupunun qarşısına keçmiş İrəvan quberniyasının bütün bölgələrini tutmaq və burada yaşayan müsəlman əhalini müdafiəsi və himayəsi altına götürmək vəzifəsi qoyulmuşdu. 8 may 1918-ci ildə 1-ci ordu korpusunun komandiri, general Kazım Qarabəkir paşa Gümrünü (Aleksandropolu) tutmaq əmri aldı. 10 may 1918-ci ildə türk qoşunları Arpaçayı keçdilər, şimaldan və cənubdan Gümrüyə yaxınlaşmağa başladılar və mayın 15-də günün sonuna yaxın türk qoşunları şəhəri tutdular. Türk qoşunlarının irəliləməsi daşnaklar arasına vəlvələ salmışdı. Amma Türkiyəyə olunan xarici müdaxilə Türk ordusunun Ermənistanın içərilərinə doğru irəliləməsinin qarşısını aldı. Bundan istifadə edən ermənilər azərbaycanlılara qarşı genişmiqyaslı soyqırıma başladılar. 1918-ci ilin noyabrında Cənub-Qərbi Qafqazın müsəlman əhalisi daşnak qırğınlarından xilas olmaq üçün kömək məqsədilə ilk dəfə olaraq Osmanlı imperiyasına üz tutdu. Məğlub edilmiş Osmanlı imperiyası isə öz xalqına və qardaşlarına - İrəvan quberniyasının azəri türklərinə bu köməyi göstərmək iqtidarında deyildi. Artıq 1918-ci il noyabrın 4-də "Türkiyə ilə həmsərhəd qəzalara köçmüş" İrəvan quberniyası müsəlmanlarının nümayəndələri Bakıya gəlmişdilər ki, özlərinin faciəli vəziyyətləri haqqında məlumat versinlər. Türk qoşunlarının köçürülməsi başlamışdı, lakin qoşunlar hissəhissə çıxırdılar. Buna baxmayaraq, müsəlmanların nümayəndə heyəti Azərbaycana müraciət etməyi və qırğının qarşısını almağa kömək istəməyi özlərinin borcu hesab etdilər. Bununla əlaqədar olaraq "Azərbaycan" qəzeti 4 noyabr 1918-ci ildə yazırdı: "Bütün Zaqafqaziyada erməni-müsəlman münasibətlərinin qurbanı olmuş İrəvan müsəlmanlarmın səsini bütün Azərbaycan xalqı eşitməlidir. İrəvan quberniyasının sağ qalmış müsəlman əhalisinin məhv olmaqdan xilas etmək üçün hər şey etməliyik, bu, bizim vətəndaşlıq borcumuzdur".

Ermənistan SSR ərazisində sonuncu deportasiya isə 1988-89-cu illərdə həyata keçirilmişdir. Əsrlərlə öz tarixi torpaqlarında yaşamış 250 mindən çox azəbaycanlı Ermənistan Respublikasında hakimiyyətdə olmuş "Daşnaksütyun" partiyasının (dünyada yeganə partiyadır ki, onun nizamnaməsində terror rəsmən qəbul edilmişdir) rəhbərliyi altında həmin ərazilərdən zorla deportasiya edilmişdir. Bir sözlə, erməni vəhşiliyi, erməni vandallığı bitib tükənməzdir. Bəlkə də tarixdə erməni qədər ikinci vəhşi, barbar toplum olmayıb. Ancaq məsəl var deyərlər, "sirkə nə qədər tünd olsa da, öz qabın çatladar". Ermənilərin, qanıiçən, barbar əməlləri nə qədər dəhşətli olsa da, sonda bu vəhşətin burulğanında elə ermənilərin özləri boğulublar. Necə ki, 1918-ci il də, ulu babalarımız erməniləri məhv etdilər, gözəl tarix yenidən təkrarlandı və 44 günlük Vətən müharibəsi dönəmində "dəmir yumruq"la ermənilərin başını əzməklə 30 ilə yaxındır ki, tapdaq altında olan Qarabağımızı azad edib, Azərbaycanımızın ərazi bütövlüyünü bərpa etdik.

***İ.ƏLİYEV***



# "Formula 1" yüksəkliyi, milli qürur hissi...



**Azərbaycanın dünyada idman ölkəsinə çevrilməsi Əli Kərimli kimilərini niyə narahat edir?**

Beynəlxalq miqyaslı idman yarışlarını keçirməyə hər ölkə qadir deyil. Bu gün Azərbaycan dünyada idman ölkəsi kimi tanınır. İdman yarışları sırasında populyarlığına görə dünyada üçüncü yerdə olan "Formula-1" yarışmasının Bakıda keçirilməsi də təsadüfi deyil. Dünyanın 20 inkişaf etmiş şəhərində keçirilən "Formula -1" üçün Bakı 21-ci şəhər oldu. Dünyada 500 milyonluq izləyici auditoriyası olan bu yarışmanın Bakıda keçirilməsi böyük əhəmiyyət kəsb edir. Çünki Azərbaycan bütün sahələrdə qalib ölkədir.

**Bəs sosial şəbəkə xəstəsi Əli Kərimlinin qarnına azar salan nədir?**

Söz yox ki, əvvəlki illərdə olduğu kimi, bu dəfə də paytaxtda möhtəşəm bir tədbir keçiriləndə milli xəyanətkarlar anti-Azərbaycan qüvvələrin sifarişi ilə belə tədbirləri gözdən salmaq üçün piar kampaniyasına başlayır, ölkəmiz əleyhinə müxtəlif yalan və böhtanlar uyduraraq, beynəlxalq aləmdə mənfi rəy formalaşdırmağa çalışırlar. Ancaq hər dəfə də xəbis niyyətləri puç olub və həmin tədbirlər yüksək səviyyədə keçirilib. Son vaxtlar xəyanətkar qüvvələr xarici ağalarının sifarişi ilə yenidən baş qaldırıblar. Onlar "Formula-1" yarışmasının start götürdüyü ərəfədə dünyada üçüncü olan bu yarışmanı gözdən salmağa çalışırlar. Həmişə belə su bulandırmaqla öndə olan AXCP sədri Əli Kərimli bu dəfə də öz çirkin əməlləprindən əl çəkməyərək erməniyə nökərçilik etdiyini açıqaydın göstərir. Sosial şəbəkə dələduzu olan Əli Kərimli öz Facebook səhifəsində iddia edir ki, bu günlərdə Bakıda növbəti dəfə start götürəcək "Formula -1" yarışları "zülmdür", kimlərinsə pul qazanması, hakimiyyətin təbliği üçün vasitədir. Sən demə, dünyada idman yarışları sırasında populyarlığına görə üçüncü sırada yerləşən "Formula1" səbəbindən avtomobillərin şəhərin mərkəzində hərəkətinin məhdudlaşdırılması insanların "əsəbini tarıma çəkir".

Sözsüz ki, Ə. Kərimli kimi əxlaqsızların düşüncəsi elə belə də olmalıdır. Çünki özünü demokrat, vətənpərvər, xalqını, millətini sevən kimi göstərməyə çalışan, siyasətçi adlandıran Ə.Kərimli kimi satqın viruslar bilməlidirlər ki, qarayaxma kampaniyaları "Formula-1" yarışının növbəti dəfə də möhtəşəm keçəcəyinə heç bir əngəl törədə bilməyəcək. Bax, bütün bunlardan sonra əlavə şərhə də məncə heç bir ehtiyac qalmır. Hər halda kor-kor, gör-gördür. Ancaq bir şeyi unutmayın - haqqı itirib, haqsızlığa gedənlərin sonu olmur. Bu yerdə Dostoyevskinin cinayətkarla bağlı dediyi sözləri xatırlatmaq istərdim: "Cinayəti törədib, onun cəzasından qaçmaq mümkündür. Amma o cinayətin qorxusundan çıxmaq əsla mümkün deyil".

***Rəfiqə HÜSEYNOVA***

***Postmüharibə dövründə Ermənistandakı vəziyyət ilk olaraq belə nəticəyə gəlməyə imkan verir ki, bu ölkənin hərbi-siyasi ekspert dairələri, xüsusilə revanşist hissəsi ermənilərin "xoşbəxt gələcək" ümidlərini özlərinin iqtisadi, siyasi, ya da intellektual resursları hesabına deyil, məhz bilavasitə xarici dəstəyin hesabına əldə ediləcəyini bildirirlər. Özü də ermənilərin ikinci rezerv faktorunda İrəvana hərbi, maliyyə və s. dəstək gözləntiləri yalnız Rusiyadan, ABŞ-dan, Aİ ölkələrindən, əsasən də Fransadan deyil, həm də naəlac şəkildə gözlədikləri yeni regional kataklizmlərindən ibarətdir.***

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Ermənistan-Azərbaycan, ərazilərin işğaldan azad olunması haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi" istiqaməti çərçivəsində hazırlanıb.*



# Ermənistanın revanşits xəyalları: cavab zərbəsi daha ağır ola bilər

*Cənubi Qafqazda Türkiyə, Rusiya və Azərbaycan əməkdaşlığı strateji xətdən növbəti münbit mərhələyə keçid alır*



Əsasən, onlar qısa zamanda Rusiya ilə Türkiyə arasındakı münasibətlərin pozulmasına ümid etməkdədirlər. Halbuki, erməni tərəfinin bu gözləntiləri adıçəkilən ölkələr arasındakı münasibətlərin möhkəmlənməsi ilə puç olmaqdadır. Hətta son on ildə Rusiya-Türkiyə münasibətləri elə bir inkişaf həddinə çatıb ki, artıq bu amil onun strateji partnyorluq həddinə yetişdiyini də göstərməkdədir.

### Həm Moskva, həm də Ankara regional sülhün, ədalətli seçimin yanında dayandılar və bu reallıq erməni siyasi analitiklərinə zərbə vurdu

Digər tərəfdən, erməni strateqlərini daha bir fakt da rahat buraxmır və bu fakt Cənubi Qafqazın təhlükəsizliyi ilə birbaşa əlaqəlidir. Xüsusilə, 44 günlük müharibədə Azərbaycanın Silahlı Qüvvələri Ermənistanın işğalçı ordusunu məhv edərkən, eləcə də sonrakı proseslərdə həm Moskva, həm də Ankara regional sülhün və ədalətli seçimin yanında dayandılar və bu reallıq erməni siyasi analitiklərinə zərbə vurdu. Bütövlükdə hər iki ölkənin birgə səyləri, eləcə də sülhməramlılıq missiyası çərçivəsində paralel mərkəzdə yer almaları, atəşkəsə nəzarətetmə mexanizmlərini həyata keçirmələri, bu mərkəzin erməni işğalından azad olunmuş Ağdam rayonu ərazisindəki fəaliyyəti də qeyd olunan məsələləri kifayət qədər ehtivam etməkdədir.

Söz yox ki, bu məcrada inkişaf edən proseslərin, əsasən, təməlində Azərbaycan reallığı, daha doğrusu, İlham Əliyev gerçəkliyi dayanmaqdadır. Bu təşəbbüslərin uğurlu realizəsində Azərbaycan Prezidentinin məqsədyönlü, eləcə də uzaqgörən siyasəti əlbəttə ki, danılmazdır. Əbəs deyil ki, erməni siyasi-ekspert publikası Ankara və Moskvanın Cənubi Qafqaz platformasındakı əməkdaşlığının təməli prinsiplərində Bakının məxsusi rol oynadığını yaxşı bilir və dərk edirlər. Üstəlik, bu strategiyaya digər qonşu ölkələrin - İranın və Türkiyənin də cəlb olunması faktı artıq Ermənistan üçün ümid etdikləri bütün xilas qapılarını bağlayır. Təbii ki, əgər Ermənistan revanşist cəhdlərindən əl çəkərsə, yalnız bu zaman onun ümid etdiyi xoşbəxt gələcək perspektivləri həyata keçirilə bilər. İstər siyasi, istər təhlükəsizlik, istər çoxtərəfli əməkdaşlıq, istər iqtisadiyyat, istərsə də başqa məsələlərin hər birində İrəvanın qarşısına qoyulan yeganə şərt oyuna qatılıb cığallıq etməməsidir. Təəssüf ki, Ermənistan hələ də cığallığını uğursuz inad dirənişləri ilə davam etdirir. Bu isə nəticədə sadə erməni xalqına ağır, sarsıdıcı zərbələr vurmaqdadır.

### Əbəs deyil ki, Bakı və Ankara artıq dəfələrlə dəqiq siqnallar göndərməklə əməkdaşlığa hazır olduqlarını, bu çərçivədə sərhədlərin açılması mümkünlüyünü bəyan ediblər

Daha bir aspekt Ermənistanın Türkiyə və Azərbaycanın ərazi bütövlüyünü tanıması, ərazi pretenziyalarını irəli sürməkdən əl çəkməsi ilə əlaqəlidir. Bundan əlavə, İrəvanın konstruktiv yanaşma etdiyi növbəti məsələ regional nəqliyyat rabitəsinə yol açmasıdır. Hansı ki, bu barədə Azərbaycan, Rusiya və Ermənistan rəhbərlərinin 10 noyabr və 11 noyabr 2021-ci ildə imzaladıqları üçtərəfli bəyanatında da vurğulanır.

Əbəs deyil ki, Bakı və Ankara artıq dəfələrlə dəqiq siqnallar göndərməklə əməkdaşlığa hazır olduqlarını, bu çərçivədə sərhədlərin açılması mümkünlüyünü bəyan ediblər. Mövcud kontekstdə bu yaxınlarda Gürcüstanın baş naziri İrakli Qaribaşvilinin Türkiyəyə səfərini göstərə bilərik. Həmin vaxt Türkiyənin prezidenti Rəcəb Tayyib Ərdoğan nəinki Azərbaycan-Türkiyə-Gürcüstan arasındakı münasibətlərin möhkəmlənməsi barədə çıxış etdi, həm də 44 günlük müharibədən sonra Azərbaycan-Gürcüstan-Ermənistan üçbucağının da perspektiv imkanlarından bəhs etdi.

Bu siqnallar çərçivəsində Ankaranın Tbilisiyə və Moskvaya mesajları da kifayət qədər maraqdoğurucudur. O, bütövlükdə Cənubi Qafqaz regionunun inkişaf və tərəqqisi üçün nəhayət, Rusiya-Gürcüstan əlaqələrinin də bərpası vacibliyindən danışıb. Bu da baş verərsə, artıq bölgədə altıtərəfli regional platformanın qurulması reallığı həyata keçə bilər.

### Ermənistanın revanşist başbilənləri hələ də "yeni türk-rus müharibəsi" haqqında xəyallar edir, Türkiyənin guya Cənubi Qafqazdan gedəcəyini düşünür və...

Yeri gəlmişkən, Azərbaycan qarşısında məğlub olan Ermənistanın daha bir ümidi də Türkiyə və Rusiyanın Suriya meydanındakı əməkdaşlığı sayəsində puç olub. Bunu Suriyada səs-küysüz, problemsiz keçirilən prezident seçkiləri də göstərdi. Düzdür, bu sahədə Ankara ilə Moskvanın arasında müəyyən fikir ayrılıqları var, amma bu da fikir ayrılığından o tərəfə keçməyən bir məsələdir, çünki tərəflər hətta ən qızmar olaylarda belə, konstruktivliyə, dialoqa üstünlük verirlər. Misal üçün, bu yaxınlarda Hələb vilayətində rus-türk birgə hərbi patrul missiyasını həyata keçirmələri də qeyd edilən kontekstdəndir.

Maraqlıdır, Ermənistanın revanşist başbilənləri hələ də "yeni türk-rus müharibəsi" haqqında xəyallar edir, Türkiyənin guya Cənubi Qafqazdan gedəcəyini düşünür və...

Və bunun sayəsində Azərbaycana "zərbə" vuracaqlarını hesab edirlər. Köhnə və lazımsız təxəyyül ermənilərdə qalır və qaldıqca onları daha ağır hala gətirir, hətta o vəziyyətə ki, müstəqilliyini itirmək dərəcəsinə qədər.

Beləliklə, istər regional, istərsə də dünya arenasındakı proseslər Türkiyə-Rusiya arasındakı münasibətləri daha da möhkəmləndirir, bu prosesdə Azərbaycanın mühüm yer alması isə onun təməlini daha da möhkəmləndirir. Hətta deyə bilərik ki, Cənubi Qafqazda lokomotiv rolunu rəsmi Bakı oynayır və əgər revanşist erməni başbilənləri "Azərbaycana zərbə endirəcəyik" deyərkən unutmamalıdırlar ki, qayıdan cavab zərbəsi yalnız Azərbaycan tərəfindən vurulmayacaq, bu zərbəni onlara bizimlə əməkdaşlıq edən digər ölkələr də, xüsusilə Rusiya və Türkiyə də endiriləcək. Bax, onda həqiqətən də Ermənistanın sonu olacaq...

**Rövşən RƏSULOV**



SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

5 iyun

Son səhifə

# F1 ikinci sərbəst yürüşünün qalibləri məlum olub



Bakıda keçirilən Formula 1 yarışları çərçivəsində F1 ikinci sərbəst yürüşlərinin qalibi müəyyən olunub. SİA-nın məlumatına görə, 10 komandanın iştirak etdiyi yürüşdə "Red Bull Racing Honda" komandasının pilotu Sergio Perez, ikinci yerdə eyni komandanın pilotu Maks Verstappen, üçüncü yerdə isə "Scuderia Ferrari Mission Winnow" komandasının pilotu Carlos Sainz qərarlaşıb.

Bununla da Formula1 yarışının 1-ci gününün proqramı başa çatıb. Qeyd edək ki, dünən başlayan Formula 1 Azərbaycan Qran Prisi iyunun 6-dək davam edəcək.

***Aysel Məmmədova***

# Hakan Çalhanoğlu: "Qorxaq futbol yox, qələbə üçün oynayacağıq"



***Futbol üzrə Türkiyə millisinin yarımmüdafiəçisi Hakan Çalhanoğlu "Avro-2020"nin İtaliyaya qarşı keçiriləcək açılış oyunu ilə bağlı fikirlərini açıqlayıb.***

Qol.az xəbər verir ki, Moldovaya qarşı hazırlıq matçından (2:0) sonra jurnalistlərə danışan "Milan"ın futbolçusu deyib: "Açılış görüşü olduğundan bizim üçün çox özəl oyun olacaq. İnşallah, yaxşı başlayacağıq. İtaliya çox güclüdür. İtalyanlar bizi yaxşı tanıyır. Qorxaq futbol yox, qələbə üçün oynayacağıq".

Moldova ilə matçda Burak Yılmaza qol ötürməsi edən 27 yaşlı futbolçu bunları da söyləyib: "Bu gün çok üstünlüklərimiz vardı. Bunları davam etdirməliyik. Burak bizim üçün çox önəmlidir. Klubunu çempion etdi. Onun motivasiyasını yüksək tutmağımız lazımdır".

Hakan transferi ilə bağlı isə danışmaq istəməyib: "İndi "Avro-2020"yə köklənmək istəyirəm. Mənim üçün xeyirlisi nədirsə, o da olsun".

# Serenay Sarıkayadan iddiaya təzminatlı cavab...



Məşhur aktrisa Serenay Sarıkaya haqqında "Serenay evli bir klub rəhbərindən hamilədirmi?" deyən proqram aparıcısı Pınar Ergünərə qarşı açdığı məhkəməni qazanıb. SİA-nın xarici mətbuata istinadən verdiyi məlumata görə, məhkəmə televiziya kanalı və Ergünerin Sarıkayaya şəxsi hüquqlarını pozduğu səbəbi ilə mənəvi ziyana görə, 10 min TL, yəni milli valyuta ilə təqribi 1950 AZN ödəməli olduğuna qərar verib.

Aparıcı Pınar Ergüner Beyaz TV-də yayımlanan verilişdə "elə bir xəbər verəcəyik ki, bəziləri bunu inkar edəcək, yalanlayacaq" və sonra "Serenay Sarıkaya evli bir klub rəhbəri ilə birlikdə idi və ondan hamilə qaldı. Klub rəhbəri uşağı abort aldırmaq istəyib, çünki Sarıkayanın uşağa sahib olmaq istəməsi onu rüsvay edərdi. Həkimə bunun üçün pul təklif edilib" kimi fikirlər söyləyib.

Ərizədə ittihamların həqiqətə uyğun olmadığı, böhtan olduğu, Serenay Sarıkayanın şərəf və ləyaqətinə ağır bir hücum olunduğu şəklində bildirilib. Məhkəmə təzminat tələbini qismən qəbul edib və Pınar Ergünerdən iddiaçı Serenay Sarıkaya 10 min lirə (təqribi 1950 AZN) ödəməsini əmr edib.

***Nərmin Hüseynova***

# Hər səhər xoşbəxt oyanmağın - 7 yolu



Günə daha yaxşı və təbəssümlə oyanmağın bir sıra yolu vardır. SİA bu barədə məlumat verib.

**1.** Təbəssümlə oyanın - Bu gün yeni bir fürsət və yaxşı gün olacaq. Bu yeni günlə birlikdə gələn fürsətlərə təbəssümlə günü başlayın.

**2.** İnsanlara hörmətlə yanaşın-İnsanlara sanki özünə güzgüdə baxırsan kimi bax. Hər kəsin öz problemləri və istəkləri var. İnsanları özünüzü sevdiyiniz kimi sevin, onları bu şəkildə qəbul edin.

**3.** Bu günün əla bir gün olacağına inanın-Unutma ki, xoşbəxt olmaq, həyatdan zövq almaq üçün dünyaya gəlmisən. İnanın ki, yaxşı bir gün olacaq, kainat sizə yaxşı şeylər göndərəcək.

**4.** Bu gün üçün yaşayın-Bu gün sizin üçün hər şey var. Bu günün hər dəqiqəsi, hər saniyəsi sizə xoşbəxt olmaq üçün fürsətlər təqdim edəcək, bunu unutmayın.

**5.** Problemləri özünüzdən uzaq tutun-Düzgün iş gör, yanında olduğun insanı sev. Hiss etdiklərinizi söyləməkdən çəkinməyin. Həqiqi insanlar hiss etməkdən qorxmur, gerçək insanlar dünyanı dəyişdirirlər.

**6.** Hər zaman şükr edin-Gün ərzində yaşadığınız hər an üçün Allaha şükr edin.

**7.** Xoşbəxtliyinizi qoruyun-Önümüzdəki günlərdə daha xoşbəxt olacağınızı unutmayın.

***Lətifə Abdıyeva***

# Kartizol nədir?



Bədən stress altında olduqda ən vacib stress hormonu olan kortizol sərbəst buraxır. SİA-nın xarici mətbuata istinadən verdiyi məlumata görə, məsələ ilə bağlı türk həkim məsləhət verib. Onun sözlərinə görə, kortizol bədənimizdə dolaşarkən nəbz sürətlənir, qan təzyiqi yüksəlir və əzələlər sıxılır: "Bütün bunlar olarkən kortizol da məhdudlaşır. Belə bir stress vəziyyəti qalıcı olarsa, yəni xroniki vəziyyətə gələrsə, kortizol iltihabı məhdudlaşdıran bir amil kimi qəbul edilməyə son qoyur. Başqa sözlə, xroniki stress bədənin kortizol varlığına alışmasına səbəb olur və daha çox reaksiya verir".

"Bu səviyyədə iltihab əslində immunitet sisteminin həddindən artıq yüklənməsindən qaynaqlanır. Belə bir vəziyyətdə immunitet sisteminin xəstəliklərlə mübarizə aparması çətinləşir. İltihab xəstəliklərə səbəb olan təsirlərin artmasını sürətləndirir".

Həkim son olaraq bunları qeyd edib: "Bu gün xroniki stress ürək xəstəlikləri, şəkərli diabet və hətta xərçənglə əlaqələndirilir. Bir çox tədqiqatçı, Covid-19 kimi tənəffüs xəstəliklərində ağciyərlərdə həddindən artıq yanğının sətəlcəm inkişafını sürətləndirəcəyinə inanır. Nəticələrin ölümcül ola biləcəyi bildirilir".

# Üzük sayəsində varlandı

İngiltərənin paytaxtı Londonda maraqlı hadisə baş verib. SİA xarici mətbuata istinadən xəbər verir ki, İngiltərənin paytaxtı Londonda yaşayan Debra Goddard, 33 il əvvəl ikinci əl dükandan 10 dollara üzük alıb.



Anası aldanaraq pulunu sadə üzüyə xərclədiyi üçün peşman olub. Lakin, bir müddət sonra Goddard üzüyü baha qiymətə satacağına ümid edərək zərgər mağazasına aparıb. Orada üzüyün üzərində 27 karat həqiqi brilyant və dəyərinin 740.000 dollar olduğunu öyrənib. Üzükdən əldə etdiyi pulu xeyriyyə işlərinə xərclədiklərini bildirib.

***Baş redaktor:***
**Bəhruz Quliyev**
***Baş redaktorun müavinləri:***
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc və SİA agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**